# UNİKAL

№44 (2274) 21 noyabr 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az


# Gələn ilin büdcəsi müzakirədə: 2026-da maddi durumumuz necə olacaq?



Səh.3



## Vüqar Qurbanovdan kütləvi ixtisarlarla bağlı etiraza reaksiya

*TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanov TƏBİB tabeli tibb müəssisələrində stomatoloqların kütləvi ixtisarları ilə bağlı etiraz aksiyasına münasibət bildirib. O, bu barədə Yeni Klinikada jurnalistlərin suallarını cavablandırarkən deyib. "Belə bir məsələ 8 ay əvvəl olmuşdu və stomatoloqlarımıza ciddi xəbərdarlıq edilmişdi. Bildirilmişdi ki, onlar keyfiyyətin artırılması ilə bağlı ciddi işlər həyata keçirsinlər. Biz ilin əvvəlindən təhlillər aparmışıq, əlimizdə stomatoloqların xidmət səviyyəsi ilə bağlı faktlar var idi. O dövrdən bugünədək stomatoloqların fəaliyyətini dəyərləndirdik. Elə tibb müəssisələrimiz var ki, oraya bir il ərzində 1 nəfər belə müraciət etmir. Demək ki, vətəndaş bu xidmətin...*

Səh.4

## "Növbəti ilin büdcəsi müstəqillik dövrünün ən böyük büdcəsi olacaq"



*Milli Məclisin deputatı Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, 2026-cı ilin dövlət büdcəsini cari ilin büdcəsindən fərqləndirən istiqamətlərdən, gələn ildən etibarən özəl sektorda çalışanların gəlir vergisinə cəlb olunmasından, ərzaq məhsullarının qiymətinin bahalaşmasından və gələn il manatın...*

Səh.4

## Cahangir Əsgərovdan qəribə gediş



*Fərhad Baxşəliyev "Premium Bank" ASC-nin İdarə Heyətinin yeni sədri təyin edilib. "Unikal" xəbər verir ki, o, 2023-cü ilin dekabr ayından bankın Müşahidə Şurasının üzvü kimi fəaliyyət göstərib. Onu da deyək ki, "Premium Bank"ın İdarə Heyətinin əvvəlki sədri Kamil Lətifov noyabrın 13-də işdən...*

Səh.8

## Deputatdan pensiya kapitalı ilə bağlı mühüm təklif



*"Elə şərait yaratmaq lazımdır ki, pensiyaya çıxmağa bir qədər qalmış müddətdə insanlar pensiya kapitalından istifadə etsinlər". "Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında "Dövlət sosial müdafiə fondunun və İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında" qanun...*

Səh.2

44_27 IYUI-QARA.qxd 11/20/2025 9:34 PM Page 2



# Rəqsanə ilə bağlı cinayət işinə xitam verilə bilər? - Açıqlama



***"Zərərçəkən tərəfə borc məbləğimiz qalıbsa, bunu ödəyəcəyik".***

"Unikal" xəbər verir ki, bunu oxu.az-a açıqlamasında Rəqsanə İsmayılovanın vəkili Hikmət Əliyev müdafiə etdiyi tərəfin ev dustaqlığına buraxılmasını şərh edərkən deyib.

Vəkil "Zərərçəkən tərəf iddia edir ki, Rəqsanə xanım ev dustaqlığına buraxılması üçün vəkili vasitəsilə onlarla əlaqə saxlayıb. Bu doğrudur?" sualına belə cavab verib: "Açığı, bununla bağlı məlumatım yoxdur. Sadəcə zərərçəkənlərlə razılıq əldə olundu. Aramızda hər hansı problem qalmayıb. Qarşı tərəfə borc məbləğimiz qalıbsa, bunu ödəyəcəyik. Lakin hazırkı məqamda müdafiə etdiyim tərəfin cinayət işinin maraqları naminə ödənilən məbləğin miqdarını açıqlaya bilməyəcəyəm. Onu qeyd edə bilərəm ki, Rəqsanə xanımın ev dustaqlığı həbsinin qalan hissəsini əhatə edəcək".

Vəkil əlavə edib ki, zərər tam ödənildikdən sonra Rəqsanə İsmayılova ilə bağlı cinayət işinə xitam verilə bilər.

"O, ev dustaqlığı dövründə müğənniyə hər hansısa məhdudiyyət tətbiq olunub?" - sualına isə cavab vermək istəmədiyini bildirib.

# "Mənim heykəlimi qoymalıdırlar" - Tacir Şahmalıoğlu

***"Bayati şiraz"ı belə süni intellektlə düzəldiblər. İrad da bildirmirlər. Mən bir neçə dəfə irad bildirdim, amma cavab görmədim".***

Bu sözləri müğənni Tacir Şahmalıoğlu yutubda yayımlanan "Künc-bucaq" layihəsində deyib. Sənətçi onun yaradıcılığına qiymət verilmədiyini bildirib. T.Şahmalıoğlu qeyd edib ki, efirə lazımsız ifaçılar çıxır: "Bu gün lazımsız insanlar efirdədir. Gileyliyəm, bu gün heç nə yoxdur. Biri maşın alır, 1 il sürür deyir, yenisini istəyirəm. İndi insanlardan elə istifadə edirlər. Yenisi gələndə köhnə sənətçiləri atırlar kənara. Axı biz sənətkarıq, hərənin öz yeri var. Yeni bizim yerimizə gələ bilmir. Onlarda potensial yoxdur. İndi axtarış yoxdur. Kimsə gəlir, deyir sənətkaram, Deyirlər, gəl. Sənətkarı axtarıb tapmaq lazımdır.Öləndə də qiymət vermirlər. Belə olmamalıdır. 45-50 ilimi millətə qurban vermişəm, yazmışam, yaratmışam. "Yolun düşsə bu dünyaya bir də gəl" mahnısı yaratdım. Bunu mən yaratdım. Bir maraqlanın da.... Nə qədər boş şeylərlə maraqlanacaqsınız. Efir elə bil rinqdir: o onla, bu bunla dava edir. Türkiyədə belə şey yoxdur. Sənətlə mücadilə edin".



T.Şahmalıoğlu insanları zövqsüz adlandırıb: "İnsanlarda özvq qalmayıb. Bayağı mahnıya qulaq asanlara baxıram: cavan, normal oğlandır, oturub buna qulaq asır. Bir meyxanaçı çıxıb efirə, deyir ki, sözlə obraz yaradırıq. Hansı obrazı yaratmısan? Yarada bilmirsiniz, ona görə də yadda qalmırsınız".

"Şuşa festivalında niyə yox idiniz" sualın müğənni belə reaksiya verib: "Mübahisə oldu, burada olmalı idim. Dövlətdən ev, maşın istəmirəm. Hər şeyim var. Ailəmdən də razıyam. Sadəcə, ədalət istəyirəm. Niyə aldadırsınız? Həyatımız yalandır: o ona, bu buna atır, aldadır. Dürüstlük də qalmayıb. Belə olmamalıdır. 44 günlük müharibədə hamı bir oldu, nələr yaratdıq. Musiqidə də birlik yoxdu, hərə ağzına gələni oxuyur. Layiq olduğum qiyməti almamışam. Heykəlim qoyulmalı idi. Tanımırlar ki, mən nəyəm. Öləndən sonra biləcəklər. Nə edirəm bu dəyəri? Heç ölümümdən sonrakı dəyərin balama, nəvələrimə xeyri olmayacaq. Tacir toya gedib, 500-300 manat qazanmamlıdır"(axsam.az).



# Şəbnəmə Türkiyədə oxumağa görə 500 min verdilər

***Müğənni Şəbnəm Tovuzlu maraqlı açıqlamalar verib. Sənətçi "Rəngarəng" verilişində Türkiyədə iştirak etdiyi tədbirlərdəki qazancını açıqlayıb.***

"Bir ay, yaxud 10 gün öncə yarım saatlıq toyları götürə bilmirəm, çünki Rusiyada bütün məclis idarə etmək təklifləri olur. 30 dəqiqəlik olduqda üç-beş gün əvvəl deyilibsə, götürürük. Türkiyədəki tədbirdə iştiraka görə 500 min TL (təxminən 20 min Azn) qonarar olub. Dəyər verib çağırırlar. İki gün ardıcıl olaraq, tədbirlərdə çıxışlarım oldu. İstanbulda olan 200 nəfərlik kimsəsiz uşaqlar üçün tədbir idi. Antalyada isə 2 minə yaxın insan iştirak etdi. Anonsu üç aya yaxın gedirdi. Gözəl qarşılandıq. 15 ölkənin nümayəndələri var idi. Zəfər bayramımızla bağlı bayraqlarımız ucaldıldı. Çox sevinirəm ki, digər ölkələrin nümayəndələrinin o mahnını sevmələri ilə qürur duydum".

# Ayan efirdə ağladı: "Özgə qismətisən, sevməməli idim"

***Canlı efirdə qonaq olan müğənni Ayan Babakişiyeva duyğusal anlar yaşayıb.***



Milli.Az-ın məlumatına görə, səhnə ifaçısı yeni mahnısını təqdim edərkən göz yaşlarını saxlaya bilməyib. O, çıxışı zamanı həyat təcrübələrindən danışaraq bildirib ki, hər bir insanın həyatına daxil olanlar ona bir dərs verir - istər yaxşı, istərsə də pis.

Ayan qeyd edib ki, səhv etmək insanın inkişafının təbii hissəsidir: "Heç kəs qüsursuz deyil. Əgər səhv etmirsənsə, həyatda irəli getmirsən. Özünü olduğundan başqa göstərmək isə sadəcə bir maskadır".

Müğənninin bu sözləri və göz yaşları sosial şəbəkələrdə də diqqət çəkib.

# "Ayda 1 dəfə təyyarəyə minməsəm ürəyim partlayar"

***Əməkdar artist Almaz Ələsgərova övladlarından danışıb.***

"Qonaqcanlı" verilişində olan müğənni kiçik qızının onunla yaşadığını deyib. A.Ələsgərova bildirib ki, hər ay səyahət edir:"İsrailə gedirəm. Yaxın dostumun toyuna dəvət almışam. Gedib gələndən sonra Avropaya gedəcəyəm. Qudalarım İspaniyaya köçüb. Gedib-gəlirik. Balaca qızım yanımdadır. O, da mənim kimi gedib-gəlir. 5 gün orada, 10 gün burada qalıram. Gəzməyi o qədər sevirəm ki, hobbimdir. Bir ayın içində təyyarəyə minməsəm ürəyim partlayar. Cavan vaxtlarımda köçmək istəyirdim. Amma indi 10 gündən artıq Bakıdan kənarda qala bilmirəm".

Qeyd edək ki, A.Ələsgərovanın böyük qızı ailəlidir və İsveçdə yaşayır.

44_27 IYUI-QARA.qxd 11/20/2025 9:35 PM Page 3






## Ağdamın işğaldan azad edilməsindən 5 il ötür

***Noyabrın 20-i Ağdam Şəhəri Günüdür.***

"Unikal" xəbər verir ki, şəhərin erməni işğalçılarından təmizlənməsindən beş il ötür. Azərbaycanın Vətən müharibəsində qazandığı parlaq qələbə nəticəsində Ağdam bir güllə atılmadan düşmən tapdağından azad olunub.

Belə ki, 2020-ci ilin sentyabrın 27-dən başlayaraq Azərbaycan Ordusu əzəli torpaqların azadlığı uğrunda genişmiqyaslı əks-hücum əməliyyatlarına başlayıb. Hərbi əməliyyatlar zamanı uzun illər işğal altında olan torpaqlar Azərbaycan Silahlı Qüvvələri tərəfindən kəndbəkənd, qarışbaqarış azad edilib. Azad olunan hər bir kənd isə növbəti yaşayış məntəqəsindən düşmənin qovulması üçün strateji mövqeyə çevrilib.

Ağdam düşmən tərəfindən bütünlüklə minalandığından, Ermənistanın işğalçı qoşunlarının əsas hissəsi bu istiqamətdə cəmləşdiyindən və ən möhkəm istehkamların burada quraşdırıldığından Azərbaycan Ordusu hərbi taktika işlədərək bu istiqamətdə geniş döyüş əməliyyatları aparmayıb. Çünki Azərbaycan ordusu bu istiqamətdən hücuma keçsəydi xeyli itki verə bilərdi. Azərbaycan Ordusu o zamankı təmas xəttinin Ağdam istisna olmaqla, digər bütün əraziləri boyunca irəliləyərək döyüş əməliyyatlarını davam etdirib.

Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi uğurlu əməliyyatlar nəticəsində düşmənin Ağdamdakı qüvvələri yarımmühasirə vəziyyətinə düşüb.

Nəhayət, Azərbaycan Ordusunun gücü və qüdrətinin qarşısında tab gətirməyin mümkün olmadığını, həm canlı qüvvə, həm də hərbi texnika sarıdan xeyli itkilərə məruz qaldığını dərk edən Ermənistanın hərbi-siyasi rəhbərliyi kapitulyasiya aktını imzalamağa məcbur olub.

Beləliklə, Azərbaycan Prezidenti İlham Əliyevin, Ermənistanın Baş naziri Nikol Paşinyanın və Rusiya Prezidenti Vladimir Putinin 2020-ci ilin noyabrın 10-da imzaladıqları üçtərəfli bəyanata uyğun olaraq Ağdam rayonu noyabrın 20-də Azərbaycana qaytarılıb. Bununla da 27 il ərzində işğal altında olan Ağdam şəhəri qəsbkarlardan tamamilə azad edilib, həmin gün Azərbaycan Ordusunun bölmələri rayona daxil olub və orada bayrağımız ucaldılıb.

Prezident İlham Əliyevin ötən il iyulun 31-də imzaladığı sərəncama əsasən, hər il noyabrın 20-də Ağdam Şəhəri Günü təntənəli şəkildə qeyd ediləcək.

Xatırladaq ki, Ağdam rayonu 1993-cü il iyulun 23-də erməni silahlı birləşmələri tərəfindən işğal olunmuşdu. Qarabağın mərkəzində yerləşən Ağdamın 846,8 kv. km-i, yəni 77,4%-i, 1 şəhər və 80 kəndi ermənilərin əlinə keçmişdi. Rayondakı 38 kolxoz-sovxozun 26-sı, 129 səhiyyə obyektinin 105-i, 108 məktəbin 74-ü, 271 mədəniyyət evinin 199-u, 24 tikinti təşkilatı, 67 idarə-müəssisə, 17 məscidin 14-ü işğal altında qalmışdı. Bütövlükdə, rayonun işğal olunmuş ərazisində bütün tikililər - Azərbaycanın tarixi, mədəni, dini və milli abidələri dağıdılıb və ya yerlə-yeksan edilib. Ağdam düşmənlə döyüşlərdə 6 000 şəhid verib, onlardan 16-sı Azərbaycanın Milli Qəhrəmanıdır.

# Cahangir Əsgərovdan qəribə gediş

## AZAL-ın sabiq "şef"i öz bankının rəhbərini niyə dəyişdirdi?



***Fərhad Baxşəliyev "Premium Bank" ASC-nin İdarə Heyətinin yeni sədri təyin edilib. "Unikal" xəbər verir ki, o, 2023-cü ilin dekabr ayından bankın Müşahidə Şurasının üzvü kimi fəaliyyət göstərib.***

Onu da deyək ki, "Premium Bank"ın İdarə Heyətinin əvvəlki sədri Kamil Lətifov noyabrın 13-də işdən çıxmışdı. Bu barədə adıçəkilən bankdan bildirilmişdi. Aradan keçən müddətdə sədr vəzifəsini müvəqqəti olaraq sədr müavini Mahir Nəcəfov icra edib. O, bu ilin yanvar ayına qədər "Premium Bank"ın sədri, K.Lətifov isə sədr müavini olub. Yanvarda onların yerləri dəyişdirilib. Lakin maraqlıdır ki, Lətifov sözügedən postda heç bir il çalışmayıb və işdən çıxıb.

O da maraqlıdır ki, sabiq sədrin 11 aylıq rəhbərliyi dövründə "Premium Bank" böyüyüb. "Unikal"ın araşdırması zamanı aydınlaşıb ki, 30 sentyabr 2025-ci il tarixində adıçəkilən bank 659 milyon 615 min manat cəmi aktivlərə, o cümlədən 477 milyon 536 min manat kredit portfelinə (müştərilərə verilmiş kreditlər) malik olub. Halbuki bank ötən ilin sonunda 640 milyon 892 min manat cəmi aktivlərə, o cümlədən 466 milyon 649 min manat kredit portfelinə malik idi. Beləliklə, cari ilin əvvəli ilə müqayisədə kredit portfeli 10 milyon 887 min manat və ya 2 % artıb.

Bundan başqa, 2025-ci ilin 9 ayında ilin əvvəli ilə müqayisədə fiziki şəxslərin "Premium Bank"dakı depozitləri 9 milyon 986 min manat artaraq 302 milyon 41 min manata çatıb. Düzdür, həmin müddətdə hüquqi şəxslərin depozitlərində 9 milyon 394 min manat azalma müşahidə edilib, lakin istənilən halda bu bankın cari ilin ilk 9 ayındakı göstəriciləri müsbət tendensiyadan xəbər verib. Buna başqa bir nümunə bankın səhmdar kapitalının da ilin əvvəli ilə müqayisədə 20 milyon manat artmasıdır. Yeni səhmlərin emissiyası və yerləşdirilməsi nəticəsində bankın maliyyə dayanıqlığı yüksək səviyyədə saxlanılıb. 30.09.2025-ci il tarixinə bankın nizamnamə kapitalı 174 milyon 601 min manat, məcmu kapitalı isə 191 milyon 741 min manat təşkil etmişdir. Maraq üçün deyək ki, Mərkəzi Bankın prudensial normativi ilə bankların minimum məcmu kapital tələbi 50 milyon manatdır.

Başqa önəmli məqam isə bu ilin oktyabrın 1-nə kimi olan statistikaya əsasən son 1 ildə problemli kreditin ən çox azaldığı ("54%) bank kimi məhz "Premium Bank"ın önə çıxması, ölkədə vaxtı keçmiş kreditləri azalan cəmi 8 bank arasında göstərilən faizlə birinci yeri tutmasıdır.

Bütün bu müsbət tendensiya fonunda "Premium Bank"ın rəhbərliyindəki qəfil dəyişikliyin baş verməsi diqqət çəkməyə bilməz.

Xatırladaq ki, adıçəkilən bank 1993-cü ildə "AZAL Bank" adı ilə yaradılıb, 2008-ci ildə adını "Silk Vey Bank"a dəyişib, 2018-ci ildə isə yenidən rebrendinq edib. Onun nizamnamə kapitalı 154,601 milyon manatdır. Bankın səhmdarları 84,46 % payla "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) keçmiş prezidenti Cahangir Əsgərov, 15,22 % payla "VIP Aviation Services" MMC və 0,32 % payla Elvira Əhmədovadır.

Qeyd edək ki, Cahangir Əsgərov "Premium Bank"ın əsas səhmdarına cari ilin yazında çevrilib. Belə ki, səhmlər əvvəlcə onun həyat yoldaşı Zərifə Həmzəyevaya məxsus olub. Həmzəyeva bu il yanvarın 17-də vəfat etdikdən sonra onun bankdakı payı Əsgərova keçib.

"Premium Bank" 2024-cü il üzrə 7 milyon 56 min manat məbləğində dividend elan edib. Bu isə əvvəlki ilə nisbətən 30 faiz az olub. Məsələ ondadır ki, bank 2023-cü il üzrə səhmdarlarına 10 milyon 120 min manat dividend ödəmişdi.

Bankın ötən il ödədiyi dividenddən Cahangir Əsgərova çatan məbləğin isə 5 milyon 962 min manat təşkil etdiyi bildirilirdi.

Belə güman etmək olar ki, Əsgərov 2025-ci ilin əvvəlində bankın rəhbərliyindəki dəyişikliyi 2024-cü ildə öncəki illə müqayisədə dividentin 30 faiz azalması səbəbindən edib. Lakin bu ilin ilk 9 ayının göstəriciləri ciddi şəkildə müsbət tendensiyadan xəbər verdiyi halda Cahangir müəllimin yanvarda təyin olunan sədri 11 ay sonra əvəzlənməsi təəccüblüdür. İstisna deyil ki, ya sabiq sədr daha cəzbedici iş təklifi alıb, ya bankın əsas səhmdarı ilə işləməkdə çətinlik çəkib, ya da bankda müsbət tendensiya ilə yanaşı, qaydasında getməyən məqamlar da var.

Xatırladaq ki, bu ilin iyulunda 75 yaşını qeyd edən Cahangir Əsgərov 1996-2023-cü illərdə "Azərbaycan Hava Yolları" (AZAL) QSC-nin prezidenti işləyib. Həmin müddətdə adıçəkilən dövlət şirkəti ilbəil zərər etdiyi, yüz milyonlarla manatlıq borca sürükləndiyi halda Əsgərov ölkənin aparıcı oliqarxlarından birinə çevrilib, özünə nəhəng biznes imperiyası yaradıb.

***Sənan Mirzə***

# Milli Məclis DSMF-nin 2026-cı il büdcəsini birinci oxunuşda təsdiqlədi

***"Dövlət sosial müdafiə fondunun 2026-cı il büdcəsi haqqında" qanun layihəsi Milli Məclisdə birinci oxunuşda qəbul edilib***

"Unikal"ın məlumatına görə, qanun layihəsi parlamentin bugünkü plenar iclasında müzakirəyə çıxarılıb. Məlumat üçün bildirək ki, dövlət sosial müdafiə fondunun (o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin) hesablarında qalan sərbəst vəsait "Sosial sığorta haqqında" Qanuna uyğun olaraq növbəti ilin xərclərinin maliyyələşdirilməsinə və (və ya) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən investisiyaya yönəldiləcək.

Büdcə ili ərzində dövlət büdcəsindən maliyyələşən təşkilatlara nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə vəsaitlər dövlət sosial müdafiə fonduna tam məbləğdə daxil olmadıqda dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin məbləği nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər artırılacaq, artıq daxil olduqda isə nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər azaldılacaq.

### Fondun xərclərinin maliyyələşmə mənbəyi

Fondun 2026-cı il büdcəsinin ümumi gəlirləri 8323,10 mln. manat proqnozlaşdırılır ki, bu da 2025- ci ilin təsdiqlənmiş proqnoz məbləği göstəricisi ilə müqayisədə 705,70 mln. manat və ya 9,26 faiz çoxdur.

Fondun 2026-cı il üçün məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərinin 6591,10 mln. manat və ya fondun ümumi gəlirlərinin 79,19 faizi qədər təşkil edəcəyi proqnozlaşdırılır ki, bu da 2025-ci ilin təsdiqlənmiş müvafiq proqnoz məbləği göstəricisi ilə müqayisədə 593,70 mln. manat və ya 9,90 faiz çoxdur.

2026-cı ildə məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların proqnozunun 2109,12 mln. manatı və ya 32,0 faizi büdcədən maliyyələşən təşkilatların, 4481,98 mln. manatı və ya 68,0 faizi qeyri-büdcə sektorunun payına düşür ki, bu da 2025-ci ilin təsdiqlənmiş proqnoz göstəricisinə nisbətən istiqamətlər üzrə müvafiq olaraq 73,36 mln. manat və ya 3,60 faiz və 520,34 mln. manat və ya 13,13 faiz çoxdur.

Fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən (işçilərlə bağlı ödənişlər nəzərə alınmadan fərdi sahibkarların özləri üçün ödənilən) məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 2026-cı ildə minimum əməkhaqqının 400,0 manat həddində 103,5 mln. manat proqnozlaşdırılır. Məcburi dövlət sosial sığorta haqlarının proqnoz göstəricilərinin müəyyən edilməsi məqsədilə istifadə olunan əsas makroiqtisadi göstəricilərdən olan orta aylıq əməkhaqqı göstəriciləri İqtisadiyyat Nazirliyindən əldə edilmiş məlumatlarda 2025-ci il üzrə 1101,6 manat, 2026-cı il üzrə isə 1170,8 manat göstərilir.

2026-cı ildə dövlət öhdəliklərinin ümumi məbləği 3613,68 mln. manat təşkil etsə də, 2026-cı ildə dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait məbləği 1700,00 mln. manat nəzərdə tutulur. Bu məbləğ ümumi dövlət öhdəliyinin 47,04 faizini təşkil etməklə 2025-ci ilin təsdiq olunmuş proqnozundan cəmi 100,00 mln. manat və ya 6,25 faiz çoxdur.

2026-cı ildə hesablanmış faizlər, maliyyə sanksiyaları və s. üzrə daxilolmaların 32,0 mln. manat məbləğində olması ehtimal edilir ki, bu da əvvəlki ilin gözlənilən göstəricisinə nisbətən 2,0 mln. manat və ya 6,67 faiz çoxdur.



### Fondun xərcləri

Fondun 2026-cı il üçün xərcləri 8483,07 mln. manat proqnozlaşdırılır ki, bu da 2025-ci ilin təsdiq edilmiş proqnoz göstəricisinə nisbətən 806,65 mln. manat və ya 10,51 faiz çoxdur.

Növbəti ildə əhaliyə ödənişlər 8196,45 mln. manat həcmində və ya fondun ümumi xərclərinin 96,62 faizi səviyyəsində proqnozlaşdırılır.

Növbəti ildə əhaliyə ödənişlər üzrə proqnozlaşdırılmış məbləğin 7992,88 mln. manatı əmək pensiyalarının, 203,57 mln. manatı isə məcburi dövlət sosial sığorta haqları hesabına verilən müavinətlərin ödənilməsinə yönəldiləcək. Əhaliyə ödənişlərin 2026-cı il üçün nəzərdə tutulmuş proqnozu 2025-ci ilin təsdiqlənmiş proqnozuna nisbətən 787,51 mln. manat və ya 10,63 faiz çoxdur. 2026-cı il üzrə əmək pensiyalarının ödənilməsi xərcləri əhaliyə ödənişlərin 97,52 faizini təşkil edir.

2026-cı ildə əmək pensiyalarının ödənişi üzrə xərclərin proqnoz göstəricisi (cəmi 7992,88 mln. manat) 2025-ci ilin təsdiq edilmiş proqnoz göstəricisinə nisbətən 10,85 faiz və ya 782,35 mln. manat çox nəzərdə tutulur. Əmək pensiyalarının proqnozunun hesablanması zamanı 2025-ci ilin sonuna pensiyaların aylıq məbləğinin 602,0 mln. manat olacağı, eləcə də pensiya məbləğlərində aylıq dəyişkənlik dinamikası nəzərə alınaraq 2026-cı ildə pensiya xərclərinin 7992,88 mln. manat təşkil edəcəyi proqnozlaşdırılır.

İqtisadiyyat Nazirliyinin rəsmi məlumatı əsasında nominal əməkhaqqı üzrə 2025-ci ildə artım tempinin 9,2 faiz təşkil etməsi nəzərə alındıqda 2026-cı ildə əmək pensiyalarının indeksləşdirilməsi ilə bağlı illik maliyyə yükünün təqribən 635,59 mln. manatadək olması gözlənilir. Nominal əməkhaqqı üzrə göstərici dəyişəcəyi təqdirdə, pensiya və bəzi məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinət növləri üzrə proqnozlaşdırılan xərc göstəricilərində dəyişikliklər mümkündür. Belə ki, artım tempinin əlavə olaraq cəmi 1 faizədək dəyişməsinin təkcə illik pensiya xərclərinə təsiri təqribən 72,0 mln. manat ətrafında gözlənilir.

2026-cı ildə məcburi dövlət sosial sığorta haqları hesabına verilən müavinətlərin proqnozu 203,57 mln. manat məbləğində nəzərdə tutulur ki, bu da 2025-ci ilin təsdiq edilmiş proqnozunu 2,60 faiz və ya 5,16 mln. manat üstələyib.

***Anar Kəlbiyev***



## "Pensiya kapitalı yetərli olmadığından 220 manat müavinət alırlar"

***"Dövlət Statistika Komitəsinin 2023-cü ilin yanvarın 1-nə olan məlumata görə, ölkəmizdə pensiyaçıların sayı 1 milyon 114 min nəfər, 2022-ci ildə 1 milyon 200 min nəfər, 2020-ci ilin eyni dövründə isə 1 milyon 270 min nəfər pensiyaçı qeydiyyatda olub".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında "Dövlət sosial müdafiə fondunun və İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında" qanun layihələrinin müzakirəsi zamanı deputat Zahid Oruc deyib.

O bildirib ki, Azərbaycanda təxminən 1.8 milyon nəfər muzdla çalışır, onların 500 mindən artığı 350-550 manat maaş (median əməkhaqqı) alır. Onun sözlərinə görə, son 3 ildə əmək pensiyası alanların sayı 156 min nəfər azalıb, əksinə, yaşa görə müavinət alanların sayında artım baş verib: "Belə ki, 2021-ci ilin 1 yanvar statistikasına görə, ölkədə 102 min nəfər aylıq 220 manat müavinət alırdısa, 3 ildə rəqəm 50 min nəfər artıb. Vətəndaşlar arasında 65 yaşı tamam olsa da pensiya kapitalının yetərli səviyyədə olmadığına görə dövlətdən 220 manat müavinət alanların sayı artır. Bəllidir ki, pensiya kapitalının həddi 40.320 manat təşkil edir. Belə şəraitdə, pensiya kapitalının miqdarı ilə bağlı dəyişikliyin aparılmasına dair müxtəlif çağırışlar var, lakin onun büdcə təsirini yalnız hökumət və müvafiq nazirlik verə bilər. Ümidvarıq ki, oxşar hesablamalar hökumətdə daim aparılır. Əlbəttə, fərqindəyik ki, ölkəmizdə bir pensiyaçıya 1.5. işləyən şəxs düşür və beynəlxalq orta göstəricisindən aşağıdır. İ01 yanvar 2023-cü il tarixə ölkə üzrə 126.117 nəfər yaşa görə əmək pensiyaçı əmək fəaliyyətini davam etdirir. Bu kateqoriyadan olan şəxslər Fonda işsizlikdən sığorta haqqı ödəməsinə baxmayaraq, əmək fəaliyyətini dayandırdıqda işsiz şəxslər üçün nəzərdə tutulan güzəşt və imtiyazlardan istifadə etmirlər. Həqiqətən də belə insanlar ya ödənişdən azad olmalıdılar, ya da artıq yaşa görə işdən azad olunduqları halda müəyyən sığrta ödənişi əldə edə bilərlər".

***Anar Kəlbiyev***

## Məhkəmə Tofiq Xanəliyevə şərti cəza verdi

***"Gənclik" Könüllü Tələbə İdman Cəmiyyəti İctimai Birliyinin sabiq sədri Tofiq Xanəliyevin cinayət işi üzrə ilk məhkəmə araşdırması yekunlaşıb.***

"Unikal"ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Mahira Kərimovanın sədrliyi ilə keçirilən sonuncu prosesdə hökm elan edilib. T.Xanəliyev 5 il 6 ay azadlıqdan məhrum edilib. Ona Cinayət Məcəlləsinin 70-ci maddəsi tətbiq edilib. Xanəliyevin cəzası 2 il şərti cəza ilə əvəz olunub.

Qeyd edək ki, Tofiq Xanəliyev adı keçən və əsas məqsədi tələbə, gənclər arasında kütləvi bədən tərbiyəsi və idmanın inkişafına dəstək vermək olan cəmiyyətə ayrılmış 70 min manatdan çox vəsaiti mənimsəməkdə ittiham olunur. İttihama görə o, idman tədbirləri və yarışlar üçün ayrılmış vəsaiti şəxsi mənafeyinə xərcləməkdə təqsirləndirilir.

***Seymur Əli***

44_27 IYUI-QARA.qxd 11/20/2025 9:36 PM Page 5



# Prezidentdən hərbi xidmətə çağırışla bağlı sərəncam



***Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2026-cı il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncama əsasən, 2008-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1996-2007-ci illərdə doğulmuş, yaşı 30-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2026-cı il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaqlar.

Xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2026-cı il yanvarın 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

Nazirlər Kabinetinə bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görmək tapşırılıb.

# "Dünya təcrübəsi var, siz nə danışırsınız?" - Spikerdən deputata irad

***"Seçicilərim mənə dərmanların təlimatlandırıcı içlik vərəqini veriblər. Qəzet yazırsınız?! (gülür). Bu qədər izahat olar?"***

"Unikal" xəbər verir ki, bunu deputat Səyyad Salahlı Milli Məclisin bu gün keçirilən plenar iclasında "Dövlət sosial müdafiə fondunun və İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında" qanun layihələrinin müzakirəsi zamanı bildirib. "Biz hamımız bilirik ki, aptekdən dərman alanda əczaçıya deyirik, bunu neçə dəfə qəbul edəcəyimi onun üstünə yaz. Dərmanla bağlı görün nələr yazır, bunu o xəstə oxuyandı?! Bunun əsəbləri onsuz da korlanıb, çoxu da yaşlı adamlardır", - deputat qeyd edib.



Spiker Sahibə Qafarova deputatın fikirlərinə münasibət bildirib: "Səyyad müəllim, orada bir az yazılsa, deyəcəksiniz ki, niyə o söz yazılmayıb. Siz nə danışırsınız? Dünyada qəbul edilmiş təcrübə var ki, dərman vasitəsilə bağlı mütləq qutunun içində izahat olur. Başqa cür də ola bilməz".

Səyyad Salahlı fikirlərinə davam edərək qeyd edib ki, sözügedən fikirləri o yox, vətəndaşlar deyir: "Bunları mənə camaat verir. Bu mütəxəssislər, həkimlər üçündür ki, istiqamət götürüb xəstəyə yol göstərsinlər. Bunlar xəstəyə lazım deyil, heç kim oxumur. Camaat bunu oxuyanda başa düşməlidir, xalq dilində olmalıdır. Əgər sən bunu dərman qutusunun içinə qoyub xəstəyə satırsansa, onun başa düşə biləcəyi dildə danış".

Spiker yenidən deputatın çıxışı ilə bağlı bildirib ki, həkimlər hər bir dərman vasitəsilə bağlı xəstəni məlumatlandırır: "Deyirsiniz ki, gərək xalqın dilində olsun. Həkim hər bir regionun dialekti ilə xəstəyə başa salır ki, dərmanı bir dəfə və ya iki dəfə iç".

***Anar Kəlbiyev***

# Deputatdan pensiya kapitalı ilə bağlı mühüm təklif



***"Elə şərait yaratmaq lazımdır ki, pensiyaya çıxmağa bir qədər qalmış müddətdə insanlar pensiya kapitalından istifadə etsinlər".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında "Dövlət sosial müdafiə fondunun və İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında" qanun layihələrinin müzakirəsi zamanı deputat Əli Məsimli deyib.

"Vətəndaş pensiyaya çıxan zaman və ya çıxmamışdan dünyasını dəyişibsə, onun pensiya kapitalının vərəsələrə verilməsi istiqamətində qanunvericiliyə dəyişiklik edilməsini vacib hesab edirəm".

***Anar Kəlbiyev***

# Dövlət hesabına verilmiş ipoteka kreditlərinin məbləği açıqlandı



***Bu günə qədər Azərbaycanda dövlət vəsaiti hesabına verilmiş ipoteka kreditlərinin məbləği 3,7 milyard manat təşkil edib.***

"Unikal" İpoteka və Kredit Zəmanət Fonduna istinadən xəbər verir ki, bu barədə Fondun "2024-2026-cı illər üzrə Kommunikasiya strategiyası"na uyğun olaraq daşınmaz əmlak sahəsində ixtisaslaşmış ekspertlərlə keçirilən görüş zamanı bildirib.

Qeyd edib ki, bu məbləğin 1 milyard 16 milyon manatı güzəştli ipoteka kreditlərinin payına düşür.

Yaşayış maliyyəsi alətlərinə həsr olunmuş görüşdə Fondun vəsaiti hesabına ipoteka kreditləşməsi və satmaq öhdəliyi ilə kirayə mənzil mexanizminə dair təqdimatlar edilib. Bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq fərmanı ilə yaradılmış İpoteka və Kredit Zəmanət Fondu Qafqaz bölgəsinin ilk ipoteka bazarı operatorudur. Dövlət vəsaiti hesabına 2006-cı ildən ipoteka kreditlərinin, 2007-ci ildən isə güzəştli ipoteka kreditlərinin verilməsinə başlanılıb.

Eyni zamanda, 2020-ci ildən başlayaraq satmaq öhdəliyi ilə kirayə mənzil mexanizmi çərçivəsində vətəndaşlara kirayə mənzillər təqdim olunur. Ötən dövrdə mexanizm çərçivəsində Bakı, Sumqayıt şəhərləri, habelə Abşeron rayonu üzrə 17 müxtəlif ünvanda kirayə mənzillər vətəndaşların seçiminə təqdim edilib.

İndiyə qədər Fondun həyata keçirdiyi ipoteka kreditləşməsi və satmaq öhdəliyi ilə kirayə mənzil mexanizmi vasitəsilə 64 647 ailənin mənzil şəraiti yaxşılaşıb. Bu çərçivədə 56 190 ipoteka krediti verilib və 8 457 vətəndaşla satmaq öhdəliyi ilə kirayə müqaviləsi bağlanılıb. Fondun yaşayış maliyyəsi alətləri vasitəsilə mənzil şəraitini yaxşılaşdıranların 70 %-ə yaxını gənclər və gənc ailələrdir.

Qeyd edilib ki, ipoteka kreditləşməsi, eləcə də satmaq öhdəliyi ilə kirayə mənzil mexanizmi çərçivəsində şəffaflığı və vətəndaşların rahatlığını təmin etmək məqsədilə proseslər tam avtomatlaşdırılıb və bütün müraciətlər Elektron Hökumət İnformasiya Sisteminə (e-gov.az) inteqrasiya edilmiş Elektron İpoteka və Kredit Zəmanət Sistemi üzərindən həyata keçirilir.

Görüşdə ətraflı müzakirələr aparılıb, ekspertləri maraqlandıran suallar cavablandırılıb və onların təklifləri dinlənilib.

# Bakıda D-8 Media Forumu keçiriləcək

***Bugün D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin media sahəsinə məsul qurumlarının və aparıcı media subyektlərinin rəhbərlərinin, digər yüksək vəzifəli nümayəndələrin və sahə üzrə tanınmış ekspertlərin iştirakı ilə "Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda D-8 Media Forumu keçiriləcək.***

"Unikal" xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyi (MEDİA) məlumat yayıb.

MEDİA-nın təşkilatçılığı ilə keçiriləcək forumda regional və beynəlxalq müstəvidə informasiya mübadiləsinin təkmilləşdirilməsi, media sahəsində əməkdaşlığın gücləndirilməsi, dezinformasiyaya qarşı mübarizə üzrə birgə mexanizmlərin formalaşdırılması, rəqəmsal media istiqamətində birgə layihələrin təşviqi və təcrübələrin paylaşılması məsələləri müzakirə olunacaq.

Forum çərçivəsində "Məsuliyyətli jurnalistika və rəqəmsal innovasiya" və "Strateji kommunikasiya və böhranın idarə olunması" mövzularında iki panel sessiyanın, həmçinin "Rəqəmsallaşan dünyada media etikası: Texnologiyalar, trendlər və narrativlər" mövzusunda vörkşopun təşkili planlaşdırılır.rumda 8 ölkədən və Təşkilatın Katibliyindən 71 xarici nümayəndə olmaqla, ümumilikdə 150-ə yaxın qonaq iştirak edəcək.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# 2026-cı il üçün ehtiyac meyarının həddi müəyyənləşdirilir

***2026-cı il üçün ehtiyac meyarının həddi müəyyənləşdirilir.***

"Unikal" xəbər verir ki, bu məsələ Milli Məclisin iclasında müzakirə olunan "Azərbaycan Respublikasında 2026-cı il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsində öz əksini tapıb.



Sənədə əsasən, ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2026-cı il üçün ehtiyac meyarının həddi 300 manat məbləğində təsdiq ediləcək.

Məlumat üçün bildirək ki, ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2025-ci il üçün ehtiyac meyarının həddi 285 manat məbləğində təsdiq edilib.

Bu o deməkdir ki, 2026-cı il üçün ehtiyac meyarı həddinin 15 manat, yəni təxminən 5,26 % artırılması nəzərdə tutulur.

Layihə səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

44_27 IYUl-QARA.qxd 11/20/2025 9:38 PM Page 6



# Gələn ilin büdcəsi müzakirədə: 2026-da maddi durumumuz necə olacaq?

***"Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi Milli Məclisdə birinci oxunuşda qəbul edilib.***

"Unikal" xəbər verir ki, qanun layihəsi parlamentin plenar iclasında müzakirəyə çıxarılıb. Məlumat üçün bildirək ki, 2026-cı il üçün dövlət büdcəsinin gəlirləri 38609,0 milyon manat proqnozlaşdırılır ki, bu da 2025-ci ilin proqnozu ilə müqayisədə 253,0 milyon manat və yaxud 0,7 faiz, 2024-cü ilin icrası ilə müqayisədə isə 1447,2 milyon manat və yaxud 3,9 faiz çoxdur.

Dövlət büdcəsinin xərcləri 41703,6 milyon manat proqnozlaşdırılır ki, bu da 2025-ci ilin proqnozu ilə müqayisədə 296,0 milyon manat və yaxud 0,7 faiz, 2024-cü ilin icrası ilə müqayisədə isə 3990,0 milyon manat və yaxud 10,6 faiz çoxdur. Dövlət büdcəsi kəsirinin yuxarı həddi 3094,6 milyon manat və ya ÜDM-in 2,3 faiz səviyyəsində proqnozlaşdırılır.



Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Milli Məclisin bugünkü plenar iclasında "Dövlət sosial müdafiə fondunun 2026-cı il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında" qanun layihələrinin müzakirəsi zamanı çıxış edib. Nazir bildirib ki, Fondun 2026-cı il üzrə ümumi xərclərinin 8 milyard 483 milyon manat həcmində olması proqnozlaşdırılır ki, bunun da 96,6% və ya 8 milyard 196 milyon manatı əhaliyə ödənişlərin payına düşür. O bildirib ki, bu göstərici 2024-cü illə müqayisədə 1 milyard 534 milyon manat, 2025-ci illə müqayisədə isə 788 milyon manat çoxdur. Bu məbləğin 7 milyard 993 milyon manatı əmək pensiyalarının, 203,6 milyon manatı isə sosial sığorta hesabına verilən müavinət xərclərinin payına düşür. 2026-cı il üzrə əmək pensiyalarının maliyyələşdirilməsi üçün ayrılan vəsait 2025-ci ilin təsdiqlənmiş xərcləri ilə müqayisədə 782,4 milyon manat və ya 10,9% artımla nəzərdə tutulmuşdur. Bunun 81,2%-i və ya 635,6 milyon manatı indeksasiya xərclərinin, digər hissəsi isə yeni təyin olunan və yenidən hesablanan pensiyaların məbləğlərinin maliyyələşdirilməsi ilə bağlı xərclərin payına düşür. Proqnoz göstəricilərə əsasən, 2026-cı il üzrə indeksasiyanın təqribən 9,2% səviyyəsində olması, orta pensiyanın məbləğinin isə yenə də 9,2% artaraq 590 manata, yaşa görə pensiyanın məbləğinin isə 629 manata çatması proqnozlaşdırılır. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası xətti ilə sığortaolunanların və əmək pensiyaçılarının sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi məqsədilə Fondun 2026-cı il büdcəsində 25 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Nazir onu da bildirib ki, növbəti il üçün Dövlət Məşğulluq Agentliyinin aparatının və yerli qurumlarının, DOST agentliyinin, Əmək Bazarı və Sosial Müdafiə məsələləri üzrə Milli Observatoriyanın və Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin və yerli qurumlarının saxlanılması və işinin təşkil edilməsi xərcləri üçün müvafiq olaraq 58,7 milyon manat, 50 milyon manat, 5 molyon manat və 5 milyon manat vəsait ayrılması planlaşdırılır.

Komitə sədri sonda bildirib ki, "İşsizlikdən Sığorta Fondunun" büdcə layihəsi 2026-cı ildə sığorta olunanların itirilmiş əmək haqlarının kompensasiya edilməsi, özünüməşğulluq, peşə hazırlığı və peşəyönümü tədbirlərinin keçirilməsi, haqqı ödənilən ictimai işlərin təşkili və digər aktiv məşğulluq tədbirlərinin maliyyələşməsi üçün optimal əsaslar yarada biləcəkdir.

A.Əliyev qeyd edib ki, son 7 ildə 4 mln. vətəndaşımızı əhatə edən 5 böyük sosial islahat zərfi icra edilmiş və bu islahatların illik əlavə maliyyə tutumu 7,6 milyard manat təşkil etmişdir. Nazir bildirib ki, cari ildə 5-ci sosial islahat zərfi çərçivəsində 1 yanvar tarixindən minimum əməkhaqqı 16% artırılaraq 400 manata, 1 fevral tarixindən isə minimum pensiya 14.3% artırılaraq 320 manata çatdırılmışdır. 1 iyul tarixindən sosial müavinətlərin, Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin və fəxri adlara görə təqaüdlərin, 1 sentyabr tarixindən isə tələbə təqaüdlərinin məbləğləri artırılmışdır. 1 yanvar tarixindən hərbi qulluqçuların aylıq vəzifə maaşları orta hesabla 10% artırılmışdır.

"Ümumilikdə 5-ci sosial islahat paketi 1,9 milyon vətəndaşımızı əhatə etməklə, illik əlavə maliyyə yükü 885 milyon manat, əmək pensiyalarının ilin əvvəlində 8,1%-lik indeksasiyası ilə birlikdə isə illik əlavə maliyyə yükü 1 milyard 400 milyon manat təşkil etmişdir. Aparılmış islahatların nəticəsidir ki, cari ildə əhaliyə pensiya ödənişləri ötən illə müqayisədə 10%, pensiyaların orta məbləği isə 9% artaraq 540 manat, yaşa görə pensiyanın orta məbləği isə yenə də 9% artaraq 576 manat təşkil edib. Əhaliyə dövlət büdcəsi hesabına ödənilən müavinət, eləcə də Azərbaycan Respublikasının Prezidentinin təqaüdü xərcləri artımların tətbiq edildiyi ötən ilin müvafiq ayları ilə müqayisədə 12%-dən çox artmışdır", - deyə A.Əliyev vurğulayıb.

Nazir bildirib ki, 2026-cı ildə işsiz və işaxtaran şəxslərin peşə hazırlığı və əlavə təhsil imkanlarının genişləndirilməsi məqsədilə 17500-ə yaxın müdavimin bu prosesə cəlb olunması istiqamətində müvafiq işlərin həyata keçirilməsi nəzərdə tutulur: "Təlim prosesinin Dövlət Məşğulluq Agentliyinin tabeliyində fəaliyyət göstərən peşə hazırlığı mərkəzləri, eləcə də özəl tədris müəssisələri tərəfindən reallaşdırılması planlaşdırılır. Hazırda 175 ixtisas üzrə peşə hazırlığı kurslarının təşkili həyata keçirilir. Eyni zamanda, 2026-cı ildə 100 yeni peşə və kvalifikasiya standartlarının hazırlanması və 135 peşə və kvalifikasiya standartlarının yenilənməsi həyata keçiriləcəkdir. İşsiz və işaxtaran şəxslərin əmək bazarına daxil olmasını dəstəkləmək üçün işəgötürənlərlə əməkhaqqının birgə maliyyələşdirilməsi mexanizmi genişləndiriləcək və 2026-cı ildə bu istiqamətdə əmək bazarına mindən artıq iştirakçının proqram çərçivəsində cəlb olunması nəzərdə tutulur. İşədüzəlmə prosesinin təşkili və əhalinin əmək bazarına inteqrasiyasının təmin edilməsi tədbirləri çərçivəsində 2026-cı ildə ölkədə ümumilikdə 180 əmək yarmarkasının keçirilməsi nəzərdə tutulur. Tələbə və şagirdlərin, habelə onların valideynlərinin, işaxtaran və işsiz şəxslərin təhsilinə, bacarığına və şəxsi keyfiyyətlərinə uyğun olaraq peşə və ixtisasının seçiminə, peşə maraqlarının formalaşdırılmasına, karyera hədəfinin müəyyənləşdirilməsinə dəstək və əmək bazarının gələcək tələblərinə uyğun maarifləndirmə işləri aparmaq məqsədi ilə təşkil olunan peşəyönümü məsləhət xidmətləri ilə əhatə olunacaq şəxslərin sayı növbəti il 230 mindən çox olacaqdır".

***Anar Kəlbiyev***



## "Teymur Musayev təyinat məsələsində yumşaq davranır" -Səyyad Salahlı

***"Mənə elə gəlir ki, səhiyyə naziri Teymur Musayev təyinat məsələsində yumşaq davranır. Nə olur-olsun təyinatı alan həkim təyinat yerinə getməlidir. Əks təqdirdə onlara diplom verilməli deyil".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin iclasında "Dövlət sosial müdafiə fondunun və İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında" qanun layihələrinin müzakirəsi zamanı deputat Səyyad Salahlı deyib.

"Bizim Tibb Universitetində yaxşı dərs keçirilir. Çünki bizim həkimləri Şərqi, Qərbi Avropa, Türkiyə və başqaları məmuniyyətlə qəbul edir. Demək ki, hazırlıqlıdırlar. Ay oğul, məni qoyub hara gedirsən? Mənim borcumu ödəməmiş hara gedirsən? Belə təbliğ olunsun, birbaşa rəsmi şəkildə deyilsin ki, vətən sənə halallıq vermir. Bundan başqa, 1980-ci ildə İmişlinin Aranalı kəndində xəstəxana tikilib, 45 ildir ki, ağzıgünə qalıb. Bu xəstəxananı niyə tikdilər, niyə istifadə olunmadı? Teymur müəllim, bu məsələ ilə maraqlanın", - deputat bildirib.

***Anar Kəlbiyev***

## Növbəti köç karvanı Şuşakənd kəndinə çatıb

***Noyabrın 20-da doğma yurduna yola salınan köç karvanı Hadrut qəsəbəsinə çatıb.***

"Unikal" xəbər verir ki, bu mərhələdə Xocalının Şuşakənd kəndinə köçürülən 54 nəfərdən ibarət 15 ailəyə mənzillərin açarları təqdim edilib. Mərasimdə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

## "Pensiya fonduna 100 milyonlarla əlavə vəsait cəlb edilə bilər" - Əli Məsimli

***"İlk növbədə pensiya fondunun vəsaitlərinin artırılması istiqamətində olan real mənbələrdən istifadə edilməsinə daha geniş mənada baxılmasını vacib hesab edirəm".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin iclasında "Dövlət sosial müdafiə fondunun və İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında" qanun layihələrinin müzakirəsi zamanı deputat Əli Məsimli eyib.

"5.1 milyon məşğul əhalinin yalnız 1,8 milyonu bilavasitə müqavilə ilə işləyir. Yerdə qalan 3.3 milyonun bir hissəsi aqrar sahədə vergidən azad olunub, amma qalan hissələrində bir balaca da fəaliyyət göstərsə, xeyli dərəcədə artımlara nail olub pensiya fonduna 100 milyonlarla əlavə vəsait cəlb edilməsinə nail ola bilərik", - deyə deputat bildirib.

***Anar Kəlbiyev***

# Vüqar Qurbanovdan kütləvi ixtisarlarla bağlı etiraza reaksiya



***TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanov TƏBİB tabeli tibb müəssisələrində stomatoloqların kütləvi ixtisarları ilə bağlı etiraz aksiyasına münasibət bildirib.***

O, bu barədə Yeni Klinikada jurnalistlərin suallarını cavablandırarkən deyib. "Belə bir məsələ 8 ay əvvəl olmuşdu və stomatoloqlarımıza ciddi xəbərdarlıq edilmişdi. Bildirilmişdi ki, onlar keyfiyyətin artırılması ilə bağlı ciddi işlər həyata keçirsinlər. Biz ilin əvvəlindən təhlillər aparmışıq, əlimizdə stomatoloqların xidmət səviyyəsi ilə bağlı faktlar var idi. O dövrdən bugünədək stomatoloqların fəaliyyətini dəyərləndirdik. Elə tibb müəssisələrimiz var ki, oraya bir il ərzində 1 nəfər belə müraciət etmir. Deməli ki, vətəndaş bu xidmətin keyfiyyətindən məmnun deyil. Çünki stomatologiya ən çox müraciət olunan sahələrdən biridir. Əgər müraciət yoxdursa, deməli, xidmətin səviyyəsi qənaətbəxş deyil", - V.Qurbanov qeyd edib.

TƏBİB rəhbəri əlavə edib ki, vacib məqam vətəndaşın aldığı tibbi xidmətin keyfiyyətindən məmnun qalmasıdır: "Bununla bağlı TƏBİB ciddi islahatlar həyata keçirəcək. Stomatoloqlarla bağlı araşdırma davam edir. Nəinki stomatoloq, digər həkimlərin fəaliyyəti ilə bağlı da araşdırma gedir və son nəticələrlə bağlı məlumat veriləcək. Regionlarda artıq bəzi stomatoloqların ştatlarının ləğv olunması ilə bağlı xəbərdarlıq göndərilib".

# Avtomobil nömrələrində defis işarəsi ləğv edildi - DYP-dən açıqlama

***Yeni qəbul edilmiş dövlət standartına əsasən, bundan sonra nəqliyyat vasitələrinə veriləcək dövlət qeydiyyat nişanlarında rəqəm və hərflər arasında istifadə olunan defis işarəsi tətbiq olunmayacaq.***

Bu barədə "Unikal"ın sorğusuna cavab olaraq Baş Dövlət Yol Polisi İdarəsindən məlumat verilib.

"Qeyd etmək istərdik ki, bu dəyişiklik yalnız yeni hazırlanan nömrə nişanlarına aiddir. Hazırda vətəndaşların istifadə etdiyi, üzərində defis olan bütün dövlət qeydiyyat nişanları tam etibarlıdır, onların dəyişdirilməsinə və yenisi ilə əvəz olunmasına heç bir ehtiyac yoxdur.

Mövcud nömrələr qüvvədə qalır, vətəndaşlardan əlavə müraciət və ya nömrə dəyişikliyi tələb olunmur. Yeni standart sadəcə bundan sonra hazırlanacaq nömrə nişanlarının dizaynına şamil edilir və köhnə nömrələrin hüquqi statusuna təsir göstərmir", - deyə əlavə edilib.

DYP-dən o da bildirilib ki, köhnə nömrələrə hər hansı müdaxilə edilməməlidir.

***Murad İbrahimli***

# İlham Haqverdiyev həbsdən çıxmaq istəyir

***Müdafiə Nazirliyinin İstirahət Evinin rüşvət ittihamı ilə həbs edilmiş rəisi İlham Haqverdiyev ev dustaqlığına buraxılmasını istəyir.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, mayorun vəkili müvəkkili barəsində seçilmiş həbs qətimkan tədbirinin ləğv edilməsi ilə bağlı vəsatət verib. Bakı Hərbi Məhkəməsi cinayət işi üzrə ibtidai istintaqın yeni başlanmasını, işdə dəyişən hal olmadığını əsas gətirərək vəsatəti təmin etməyib. Mayorun həbsinin davamına qərar verilib. Qeyd edək ki, İ.Haqverdiyev ötən ay Hərbi Prokurorluq tərəfindən tutularaq cinayət məsuliyyətinə cəlb edilib. O, rəhbərlik etdiyi İstirahət Evinin işçilərindən rüşvət almaqda ittiham olunur.

# "Növbəti ilin büdcəsi müstəqillik dövrünün ən böyük büdcəsi olacaq"

## Vüqar Bayramov: "İlk dəfə olaraq neft bumundan sonra Azərbaycan dövlət büdcəsində qeyri-neft sektorunun payı 58 faizə qədər yüksələcək"

***Milli Məclisin deputatı Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, 2026-cı ilin dövlət büdcəsini cari ilin büdcəsindən fərqləndirən istiqamətlərdən, gələn ildən etibarən özəl sektorda çalışanların gəlir vergisinə cəlb olunmasından, ərzaq məhsullarının qiymətinin bahalaşmasından və gələn il manatın məzənnəsinin necə olacağından danışıb.***

***-Vüqar bəy, Milli Məclisdə 2026-cı ilin dövlət büdcəsi müzakirə olunaraq ilk oxunuşda qəbul edilib. Gələn ilin büdcəsini cari ildən fərqləndirən əsas amillər hansılardır?***

-Gələn ilin dövlət büdcəsi 2025-ci ilin büdcəsindən bir sıra istiqamətlərinə görə fərqlənir. Növbəti ilin büdcəsi müstəqillik dövrünün ən böyük büdcəsi olacaq. 2026-cı ilin dövlət büdcəsinin daxilolmalarında qeyri-neft sektorunun payının kəskin artması



müşahidə olunub. İlk dəfə olaraq neft bumundan sonra Azərbaycan dövlət büdcəsində qeyri-neft sektorunun payı 58 faizə qədər yüksələcək. Bu da fiskal şaxələndirmə baxımından çox vacibdir. Bu ondan xəbər verir ki, fiskal gəlirlərimizdə qeyri-neft sektoru növbəti ildə əsas drayverə çevriləcək. Digər bir fərq səmərəliliyin artırılması ilə bağlıdır. Bir sıra istiqamətlərdə, o cümlədən publik hüquqi şəxslərə vəsaitin ödənilməsində, subsidiyaların verilməsində səmərəlilik meyarlarından istifadə olunur. O baxımdan növbəti ilin büdcə planlaşdırılmasında səmərəlilik meyarından daha çox istifadə olunub. Təbii ki, büdcə xərclərinin optimallaşdırılması da müşahidə olunur. Bu da vacib məqamlardan biridir.

***-Məlum olduğu kimi, 7 illik vergi güzəşti ləğv olunur və gələn ildən etibarən özəl sektorda çalışan şəxslər gəlir vergisinə cəlb olunacaq. Sizcə, gəlir vergisinin bərpası əmək bazarında leqallaşma prosesinə necə təsir göstərəcək?***

-Növbəti ildə özəl sektorda gəlir vergisinin tətbiqi ilə bağlı müzakirələrdə bizim təklifimiz ondan ibarət idi ki, əgər güzəşt müddəti uzadılmırsa, mərhələli keçid tətbiq olunsun. Biz qanun layihəsində mərhələli keçidi müşahidə edirik. Hər halda 2026-cı ildə gəlir vergisinin tətbiqi müəyyən xərc yaratsa da, ciddi və izafi xərc yaratmayacaq. Əməkhaqqı alanların təxminən 95 faizinin maaşı 2500 manatdan azdır. Onlar 3 faiz vergiyə cəlb olunacaqlar. Orta aylıq əməkhaqqı 1000 manat ətrafındadır. Yəni, 1000 manat maaş alan vətəndaşın əməkhaqqından 200 manat çıxılacaq, qalan 800 manat 3% vergiyə cəlb olunacaq. 24 manat vergi hesablanacaq. Bu o deməkdir ki, 1000 manat əməkhaqqı alan vətəndaşımız növbəti ildən 24 manat vergi ödəyəcək. Təklifimiz budur ki, özəl sektor, şirkətlər bu xərci konpensasiya etsinlər. Şirkətlər tərəfindən bu xərcin əməkhaqqının artırılması ilə konpensasiya edilməsi mümkündür. Bütövlükdə, bunun qiymətləndirilməsinin aparılmasına ehtiyac var. Güzəşt müddətinin bitməsinin məşğulluğa necə təsir edəcəyini 2026-cı ilin sonunda qiymətləndirmək mümkün olacaq.

***-Noyabrın19-da Mərkəzi Bankın sədri Taleh Kazımov büdcə müzakirəsində çıxışı zamanı bildirdi ki, bu il ərzaq inflyasiyası 8,2 faizdir. Deputatlardan bəziləri ərzaq məhsullarının qiymətinin qalxmasının böyük problemlər yaratdığını qeyd etdilər. Ərzaq məhsullarının qiymətinin artması nə ilə bağlıdır və bunun qarşısını almaq üçün hansı addımlar atılmalıdır?***

-Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra digər məhsullarla müqayisədə ərzaq məhsullarının qiymətində daha çox artımlar müşahidə olunur. Bu birbaşa onunla bağlıdır ki, Azərbaycan ərzaq məhsullarının əhəmiyyətli hissəsini idxal edir. Dünya bazarında qiymət artımları baş verən zaman idxal inflyasiyasını artırır. Ərzaq məhsullarının qiymətindəki artım məhz idxal inflyasiyası ilə bağlıdır. İdxal inflyasiyası nəticə etibarı ilə ərzaq məhsullarının qiymətlərinə təsir göstərir və qiymətlər artır. Burada rasional və optimal yol yerli istehsalın artırılması, ərzaq məhsullarına olan tələbin yerli istehsal hesabına ödənilməsidir. Bu istehlak bazarında qiymət tarazlığının qorunub saxlanmasıdır. Həmçinin, növbəti illərdə ərzaq məhsullarının qiymətindəki artımın qarşısının alınmasına və qiymətlərin optimallaşdırılmasına gətirib çıxara bilər.

***-Mərkəzi Bankın sədri həmçinin məzənnə ilə bağlı gözləntilərin nikbin olduğunu söyləyib. Bildiyimiz kimi, manatın məzənnəsinə təsir edən əsas amillərdən biri neft qiymətidir. Gələn il neft qiymətlərinin necə olacağı və manatın məzənnəsinə necə təsir göstərəcəyi gözlənilir?***

-Manatın məzənnəsi tədiyyə balansının vəziyyətindən və eləcə də ölkəyə daxil olan valyutanın həcmindən birbaşa asılıdır. Çünki ölkəyə nə qədər çox valyuta daxil olursa, bu, valyuta tələbinin tarazlığının qorunub saxlanmasına gətirib çıxarır. O baxımdan 2026-cı ildə də manatın məzənnəsinə təsir göstərən əsas faktor neftin dünya bazar qiyməti olacaq. Mərkəzi Bankın son açıqlamalarından bəlli olur ki, neftin dünya bazar qiymətinin hətta 50 dollara qədər azalması iqtisadi baxımdan valyuta bazarında ciddi təhdid yaratmır. Amma bu nəticə etibarı ilə birbaşa ölkəyə daxil olan və çıxan valyutanın həcmindən asılı olacaq. Növbəti ildə də neftin dünya bazar qiyməti ölkəyə daxil olan valyutanın həcminə birbaşa təsir göstərən faktor olaraq qalmaqdadır. Manatın məzənnəsi isə birbaşa Mərkəzi Bankın mövqeyindən asılı olacaq. Çünki Azərbaycan üzən məzənnə rejiminə keçmədiyindən 2026-cı ildə də manatın məzənnəsinə təsir göstərən əsas faktor Mərkəzi Bankın qərarları olacaq.

***Anar Kəlbiyev***

44_27 IYUl-QARA.qxd 11/20/2025 9:39 PM Page 8



# Ramiz Mehdiyevə villa hədiyyə edən məmurlar qorxu içində

## Zərərsizləşdirilən "köhnə məmur korpusu"nun sərvət acgözlüyü... - İlginc təfərrüatlar!

***Azərbaycanda bir neçə yüksək vəzifəli şəxsin, əsasən də icra başçısının Ramiz Mehdiyev Prezident Administrasiyasının rəhbəri olarkən ona daşınmaz əmlak, bir çox hallarda isə dəbdəbəli mülk hədiyyə etdiyi məlum olub. Son olaraq həmin sırada Şabran rayonunun icra başçısı Asif Hüseynovun adı çəkilib. Bildirilib ki, hazırda dövlətə xəyanət ittihamı ilə ev dustaqlığında olan Ramiz Mehdiyevə, onun arvadı Qalina Mehdiyevaya Siyəzəndə torpaqlar verməsi haqda məlumat var.***

Bu barədə Şabran rayonunda məskunlaşan keçmiş məcburi köçkün Məhəmməd Məmmədov 7times-ə açıqlama verib. Vaxtilə adıçəkilən rayonda vəzifə tutmuş Məhəmməd Məmmədov icra başçısının Qalaaltıda villasını təmir etdirdiyini, villa tikib bağışladığını kürəkəni İlham Əliyevin adına sənədləşdirilib.

Qusar Rayon İcra Hakimiyyətinin sabiq başçısı Şair Alxasov da vəzifədə ikən Mehdiyevə Qusarın Çiləgir kəndində dəbdəbəli malikanə tikdirib. Hətta PA-nın sabiq rəhbəri üçün bir neçə mülk inşa olunduğu, onlardan birində Mehdiyevin o zamanlar deputat olan kürəkəni İlham Əliyevin qaldığı deyilir. Həmin malikanənin Qusar-Laza yolunun kənarında, meşənin içərisinə qədər uzanan 40 sotluq ərazidə inşa edildiyi vurğulanır.

Naxçıvan şəhərinin ən gözəl məkanlarından birində də Mehdiyev üçün villa inşa olunub. Şəhərin qədim yaşayış massivlərindən sayılan köhnə adıyla Çuxur məhəlləsi, indiki adıyla İslam Səfərli küçəsində tikilən həmin malikanə "Böyük bağ" adlanan ərazinin həndəvərində yerləşir. 2020-ci ildə yayılan və həmin vaxt təkzib edilmanat qiymət qoyulub. Ərazisində xüsusi vertolyot meydançasının belə olduğu villa ilə bağlı bu günlərdə başqa bir ilginc xəbər yayılıb. Adı çəkilən kəndin sakinlərinə istinadla "Günün səsi" yazıb ki, mülkün ərazisi 40 hektar olub. Böyük bağa malik imarət tikilərkən onun ərazisi Ziya Məmmədovun qardaşı İldırım Məmmədovun bilavasitə başçılığı ilə zorakı üsullarla, hədə-qorxu gəlinməklə əhalidən dəyər-dəyməzinə müsadirə olunub. "Camaatın pay torpaqları birləşdirilərək əzəmətli imarətin tikilməsində sözün əsl mənasında yerli sakinlərin qanı sovurulub" - deyə sakinlər bildiriblər.

O da bildirilib ki, Mənsur Məmmədov bu bağın salınması, ətrafına hasar çəkilməsi, içərisində şərq hökmdarlarının sarayına bənzədilən imarətin tikilməsi üçün sahibkarlardan belə pul toplayıb.

Xatırladaq ki, villanı inşa edən



bildirib.

Bundan əvvəl isə Ramiz Mehdiyevə Qəbələdə fövqəladə hallar naziri Kamaləddin Heydərovun qala kimi imarət hədiyyə etməsi barədə iddia ortaya atılıb.

Bundan başqa, Xaçmaz rayonunun Nabran istirahət zonasında 1 hektar ərazini əhatə edən 4 mərtəbəli villanın 2012-ci ildə sözügedən rayonun keçmiş icra başçısı Şəmsəddin Xanbabayev tərəfindən, Şabran rayonunun Kilvar kəndində meşəyə bitişik iki mülkün həmin rayonun keçmiş icra başçısı Novruz Novruzov tərəfindən Mehdiyevə hədiyyə olunduğu bildirilir.

Bakının Xəzər Rayon İcra Hakimiyyətinin sabiq başçısı Gülağa İslamov da "boz kardinal"a villa hədiyyə edən məmurlar sırasında olub. O, Mehdiyevə Şüvəlan bağları, "Gülçülük sovxozu" adlanan elit ərazidə inşa edilmiş 1000 kvadratmetrlik villanı bağışlayıb. Ötən il 1 milyon 300 min manata satışa çıxarılan həmin villa Mehdiyevin məyən məlumata görə, tikintini o zamanlar Muxtar Respublikanın Ali Məclisinin sədri işləyən Vasif Talıbova məxsus "Gəmiqaya" Holdinq həyata keçirib. Deyilənlərə görə, gözoxşayan bu malikanənin tikintisinə Talıbov özü şəxsən nəzarət edirmiş.

"Unikal"ın araşdırması zamanı məlum olub ki, Mehdiyevə hədiyyə edilən ən dəbdəbəli villa Göyçay rayonu ərazisindədir. Villanın təxminən 4 hektarlıq ərazidə tikildiyi bildirilir. Rayonun Hüngütlü kəndi ərazisindəki bu mülk keçmiş nəqliyyat naziri Ziya Məmmədovun tapşırığı ilə həmin vaxt Göyçay rayon icra hakimiyyətinin başçısı olmuş Mənsur Məmmədov tərəfindən inşa olunub. Yerli mənbələrdən əldə etdiyimiz məlumata görə bu mülk 2010-cu ildə inşa edilib. 2020-ci ilin yayında isə o zaman AMEA prezidenti işləyən Mehdiyev bu villanı satışa çıxarıb. Hər tərəfdən 6 metr hündürlükdə hasarla əhatə olunan villaya 2,5 milyon

Məmmədov 2015-ci ildən Göyçay Rayon İcra Hakimiyyətinin başçısıdır. O, sabiq nəqliyyat naziri Ziya Məmmədovun bacısı oğludur. Ucardan əvvəl 2005-2007-ci illərdə Zərdaba, 2007-2015-ci illərdə isə Göyçaya rəhbərlik edib.

"Unikal"a daxil olan məlumatda vaxtilə Mehdiyevin sayəsində Milli Məclisə mandat əldə edən bir neçə sabiq deputat-biznesmenin də "boz kardinal"a, onun ailə üzvlərinə mülk bağışladığı bildirilir.

Bu arada "Musavat.com" isə yazıb ki, hazırda Ramiz Mehdiyevin cinayət işi üzrə aparılan istintaq çərçivəsində onun rəhbərlik etdiyi dövrdə villalar və mənzillər hədiyyə edən məmurların siyahısı da dəqiqləşdirilir. Belədə PA-nın keçmiş rəhbərinə vaxtilə dəbdəbəli mülklər hədiyyə etməklə ona sədaqətlərini, bağlılıqlarını göstərmək, eyni zamanda "toxunulmazlıq" statusu qazanmaq istəyən hazırkı və keçmiş iri vəzifəlilərin ciddi səksəkə içində olduqlarını düşünmək mümkündür.

Ümumiyyətlə isə yuxarıda sadalanan faktlar Azərbaycanın köhnə məmur korpusunun iç üzünü açıb göstərir. Bir daha aydın olur ki, hazırda mərkəzi idarəetmədəki təmizləmə və sağlamlaşdırma siyasəti çərçivəsində tamamilə zərərsizləşdirilən bu korpus nümayəndələri üçün var-dövlət, sərvət hərisliyinin heç bir həddi-hüdudu olmayıb. Əks halda, paytaxt və onun ətrafında saysız-hesabsız mənzilə, imarətlərə yiyələnmələri bəs etmirmiş kimi, az qala ölkənin hər rayonunda da bir, hətta bir neçə mülk sahibi olmaq bu adamların nəyinə lazımmış, görəsən?!

***Toğrul Əliyev***



## "Prezident 5 ildə 569 dəfə azad olunan ərazilərə səfər edib"

***"Cənab Prezident 5 il ərzində 569 dəfə işğaldan azad olunan ərazilərə səfər edib, 170 layihənin təməlini qoyub, 167 obyektin açılışdan iştirak edib. 62 mindən çox insan həmin regionlarda yaşayır. 19 məktəb tikilib, 7 məktəbəqədər müəssisə, 1 xəstəxana istifadəyə verilib. Yollar, körpülər barədə kifayət qədər məlumat var".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında 2026-cı ilin dövlət büdcəsinin müzakirəsi zamanı parlamentin Regional məsələlər komitəsinin sədri, deputat Siyavuş Novruzov deyib.

"Cənab Prezidentin sərəncamı oldu. Regionların strukturlarının təkmilləşdirilməsi ilə bağlı Nazirlər Kabinetinə tapşırıq verdi ki, qısa müddətdə strukturların təkmilləşdirilməsi və yeni struktur layihəsi təqdim olunsun. Hesab edirik ki, burada bələdiyyələrin də rolu öz əksini tapacaq. Bir Xocavənd rayonunu çıxmaq şərtilə qalanlarının hamısı özü büdcəsini təmin edir. Regionlardan danışanda rəqəmlərə fikir vermək lazımdır. Rayonlar arasında sağlam rəqabət gedir", - deyə komitə sədri bildirib.

***Anar Kəlbiyev***

## Bağçalara növbəyə yazılma prosesi davam edir

***2025-2026-cı tədris ili üzrə oktyabrın 2-dən etibarən məktəbəqədər təhsil müəssisələrinə növbəyə yazılma prosesi davam edir.***

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən "Unikal"a bildirilib ki, qəbul prosesi "bq.edu.az" portalı vasitəsilə elektron formada həyata keçirilir.

Xatırladaq ki, məktəbəqədər təhsil müəssisələrinə qəbul sistemində növbə yaradarkən bir uşaq üçün maksimum üç məktəbəqədər təhsil müəssisəsini seçmək mümkündür. Mövcud növbələrin boş yer olduğu halda sorğuya çevrilməsi prosesi minimum beş gündən sonra həyata keçiriləcək.

Uşaqların məktəbəqədər təhsil müəssisələrində boş yerlərə qəbulu il boyu davam etdiriləcək.

## Komitə sədrindən 3 uşaqlı ailələrlə bağlı təklif

***"Uşaq yalnız ailənin deyil, eyni zamanda mənsub olduğu xalqın, dövlətin ən qiymətli sərvətidir. Məktəbəqədər təhsil müəssisələrinin sayının artırılması, uşaq bağçalarında və təhsil müəssisələrində tibbi, psixoloji xidmətin təşkilinə ehtiyac var".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında 2026-cı ilin dövlət büdcəsinin müzakirəsi zamanı parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, deputat Hicran Hüseynova deyib.

"Beynəlxalq təcrübəni öyrənməklə 3 və daha çox uşaqlı ailələrə sosial dəstək proqramlarının həyata keçirilməsinə böyük ehtiyac var", - deyə komitə sədri bildirib.

***Anar Kəlbiyev***

44_27 IYUI-QARA.qxd 11/20/2025 9:40 PM Page 9



# Nazim İbrahimovun daha bir qardaşına həbs cəzası

## Vaxtilə pula pul deməyən, forsu yerə-göyə sığmayan İbrahimov qardaşlarının ağlasığmaz süqutu... - Haradan haraya?!

***Yola salmaq üzrə olduğumuz həftə "Bakı Ağac Emalı" Açıq Səhmdar Cəmiyyətinin faktiki sahibi, 1962-ci il təvəllüdlü Tağı İbrahimov və ASC-də inzibati-təsərrüfat idarəçiliyini həyata keçirən, 1992-ci il təvəllüdlü Toğrul Rzayevin mebel emalatxanasında 10 nəfərin ölümü, 23 nəfərin xəsarət alması ilə nəticələnən partlayışla bağlı növbəti məhkəmə prosesi keçirilib.***

Hakim Elmin Rüstəmovun sədrlik etdiyi prosesdə hökm oxunub. Hökmə əsasən, Tağı İbrahimov və Toğrul Rzayev - hər ikisi 6 il azadlıqdan məhrum edilib.

### Nə baş vermişdi?

Qeyd edək ki, bu il yanvarın 15-də paytaxtın Binəqədi rayonunda "Bakı Ağac Emalı" Açıq Səhmdar Cəmiyyətinin ərazisində yerləşən mebel emalatxanalarında 10 nəfərin ölümü, 23 nəfərin xəsarət alması ilə nəticələnən yanğınla müşayiət olunan partlayış baş verməsi faktı əsasında Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsində başlanmış cinayət işi üzrə istintaq tamamlanıb.

İbtidai istintaqla ASC-nin faktiki sahibi, 1962-ci il təvəllüdlü Tağı İbrahimov və ASC-də inzibati-təsərrüfat idarəçiliyini həyata keçirən, 1992-ci il təvəllüdlü Toğrul Rzayevin üzərinə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi vəzifəsi qoyulmuş şəxslər kimi bu qaydaları ehtiyatsızlıqdan pozaraq 10 nəfərin ölümünə, 23 nəfərin isə xəsarət almasına, habelə ASC-nin ərazisində olan əmlaklara və təbiətə maddi ziyan vurmaqla digər ağır nəticələrə səbəb olmaları, həmçinin Tağı İbrahimovun xüsusilə külli miqdarda vergiləri ödəməkdən yayınmasına əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Tağı İbrahimova Cinayət Məcəlləsinin 213.3 (xüsusilə külli miqdarda vergiləri ödəməkdən yayınma) və 225.3-cü (üzərinə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi vəzifəsi qoyulmuş şəxs tərəfindən bu qaydaların pozulması ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri ilə, Toğrul Rzayevə isə həmin Məcəllənin 225.3-cü maddəsi ilə yekun ittiham elan edilib. Onların hər ikisi barəsində müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

### Tağı İbrahimova ödədiyi yarım milyon manatdan çox pul da kömək etmədi...

Onu da deyək ki, Tağı İbrahimov ötən ay keçirilən məhkəmə proseslərinin birində demişdi ki, onu və T.Rzayevi yanğında günahlandırırlar. Sitat: "Orada yanğın yox, birbaşa partlayış olub. Mən oranı icarəyə verirdim. Cavabdeh şəxslər icarəyə götürənlər idilər. Vergi ilə bağlı 693 min manatla razı olmasam da, onun ödənişini etmişəm. Ədliyyə Nazirliyinin ekspertizası da təsdiqləyib bu məbləğin doğru olmadığını. Zərərçəkənlərin xərclərini qarşılamışam, həlak olanların da o cümlədən. 1 milyon, 500 min ödəniş istəyib övladları üzərindən alver aparanlar var. Bu ödənişi mən etməməli idim, amma etmişəm. Ümid edirəm ki, ədalətli hökm oxunar. İcarəyə verdiyim dövrdə fövqəladə halların qarşısının alınması ilə bağlı daha əvvəl tədbirlər görmüşük, yanğın balonları və s. Bir daha qeyd edirəm ki, yanğın olsa idi, bir neçə nəfər qaça bilərdi, amma burada birbaşa partlayış olub".

Daha sonra Tağı İbrahimovun vəkili vəsatətlə çıxış edərək yanğın təhlükəsizliyi və partlayışla bağlı ekspertizanın yenidən aparılmasını xahiş etmişdi.

Lakin nə Tağı İbrahimovun irəli sürdüyü partlayış versiyası, nə də külli miqdarda vergidən yayınma ittihamını qəbul etmədiyi halda yarım milyon manatdan çox vəsaiti ödəməsi onu həbs cəzası almaqdan qurtarmayıb.

### İbrahimov qardaşlarının səngiməyən qalmaqalları

Tağı İbrahimov Diasporla İş üzrə Dövlət Komitəsinin keçmiş sədri Nazim İbrahimovun qardaşıdır. O, vaxtilə "Azad Azərbaycan" telekanalının rəhbəri olub.

Maraq üçün deyək ki, Nazim İbrahimovun daha əvvəl başqa bir qardaşı da həbs edilib. Söhbət Sahib İbrahimovdan gedir. O, 2022-ci ildə 6 il 9 ay müddətinə azadlıqdan məhrum edilib. Belə ki, Bakı şəhəri, Xətai Rayon Məhkəməsinin "STS" və "Sahil-D Kompani" MMC-nin təsisçisi olan S.İbrahimovun adıçəkilən şirkətlərin digər vəzifəli şəxsləri ilə qabaqcadan əlbir olaraq verdiyi tapşırıqlar əsasında əvvəlcədən vəd edilmiş əmlakı alıcıya vermək niyyəti olmadan tikintisi aparılan binalarda qeyri-yaşayış sahələrinin satılması görüntüsünü yaratmaq məqsədi ilə yalan vəd verərək saxta sənədlərin tərtib edilməsi yolu ilə ayrı-ayrı vaxtlarda vətəndaşdan ümumilikdə 1 milyon 735 min manat məbləğində pul vəsaitini alaraq şəxsi ehtiyaclarına sərf etməsinə, rəsmi sənədlərə bilə-bilə yalan məlumatları daxil etməklə vəzifə saxtakarlığı törətməsinə əsaslı şübhələr müəyyən edilmişdi.

Üstəlik, bu, S.İbrahimovun ilk cinayət əməli deyildi. O, 2020-ci ildə də dələduzluğa görə məhkəmə qərarı ilə 5 il 6 ay müddətinə azadlıqdan məhrum edilmişdi. S.İbrahimovun istintaq zamanı həbsdə qaldığı müddət cəzadan çıxılaraq qəti olaraq 3 il 11 ay cəza saxlanılmış, Cinayət Məcəlləsinin 70-ci (şərti) maddəsi tətbiq edilməklə 1 il müddətinə sınaq müddəti olmaqla cəzası şərti hesab edilmişdi. Halbuki ittiham olunduğu maddələrlə S. İbrahimovu 15 ildən artıq azadlıqdan məhrumetmə cəzası gözləyirdi. Həmin vaxt KİV-in yazdığına görə, işin maraqlı tərəfi budur ki, S.İbrahimov nə zərərçəkmişlərin pulunu, nə də dövlətə olan vergi borcunu ödəyib. Belə ki, o, 1 milyon 439 min manat vergi borcundan cəmi 37 min manatını ödəyib. Qanunsuz sahibkarlıqla məşğul olmağa görə vurduğu 1 milyon 61 min manat ziyanı da ödəməyib.

Nazim İbrahimovun daha bir qardaşı, "Nehrəmli Hacı İbrahim" kimi tanınan İbrahim İbrahimov da zaman-zaman qalmaqallarla gündəmə gəlir. O, vaxtilə Beynəlxalq Bankdan götürdüyü yüz milyonlarla manat krediti geri qaytarmadığı üçün həbs təhlükəsi ilə üzləşmişdi. Məlum olmuşdu ki, Hacı İbrahim "Xəzər adaları" layihəsi üçün adıçəkilən bankdan 850 milyon manat kredit götürüb. O dövrkü məzənnə ilə bu, 1 milyard dollardan artıq edirdi. Qalamaqallı iş adamı isə borcunun 450 milyon manat olduğunu söyləyirdi. O, krediti ödəmədiyinə görə 2015-ci il mayın 13-də Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin əməkdaşları tərəfindən saxlanmışdı. Hacı İbrahim bank qarşısındakı öhdəliklərini yerinə yetirməyi vəd edəndən sonra mayın 27-də sərbəst buraxılmışdı.

Bütün bu hadisələrdən sonra Hacı İbrahimin biznesi kəskin şəkildə zəifləməyə başladı. Onun məşhur "Xəzər adaları" proyektindən "fırıldaq layihə" kimi bəhs edildi, külli miqdarda borclar səbəbindən digər işləri də kəllə-mayallaq oldu. İş o yerə çatdı ki, Hacı İbrahimin Bakı şəhəri, Nərimanov rayonu, Atatürk prospekti, Məmməd Araz küçəsi 109 ünvanında yerləşən və "Avesta Konserni" kimi tanınan hündürmərtəbəli qeyri-yaşayış binasını satmaq məcburiyyətində qaldığı barədə məlumat yayıldı. Lakin sonradan İ.Nehrəmli binanın hələ ki, satılmadığını söylədi. Lakin elə bu açıqlama da onun biznesinin "qürubundan" xəbər verirdi: binanı satmayıb, ancaq satmağa məcburdur, sadəcə alıcı tapa bilmir!



O ki, qaldı Nazim İbrahimova, sabiq komitə sədri barədə uzun-uzadı danışmağa ehtiyac yoxdur. Vaxtilə ölkənin ən korrupsionerləşmiş və oliqarxlaşmış məmurlarından olan N.İbrahimov mətbuatın və ictimaiyyətin gündəminə bir qayda olaraq diasporanın inkişafı üçün ayrılan büdcə vəsaitlərini şəxsi biznesinin çiçəklənməsinə yönəltməsi ilə gəlib. Hətta vəzifəsindən uzaqlaşdırılarkən uzun müddət rəhbərlik etdiyi komitədə yol verdiyi yeyintilərə görə həbs olunacağı deyilirdi, lakin sonrada bu reallaşmadı. Hər bir halda N.İbrahimov indi əvvəlki ehtişamından çox uzaqdadır və artıq xeyli zəifləmiş biznesini birtəhər qoruyub-saxlamaqla məşğuldur.

Bir sözlə, vaxtilə pula pul deməyən, təkəbbürü, forsu yerə-göyə sığmayan, dəbdəbəli, təmtəraqlı həyatları göz qamaşdıran İbrahimov qardaşları indi böyük çöküşün ağrısını çəkmək, acısını yaşamaqla məşğuldurlar.

Necə deyərlər, kiminin əvvəli, kiminin axırı?!

***Sənan Mirzə***

44_27 IYUl-QARA.qxd 11/20/2025 9:40 PM Page 10



# Azərbaycanda 17 milyon manatlıq vergi borcu olan şirkət varmış...

## Bir neçə ay əvvəl ölkədən pul çıxarmaqda günahlandırılmışdı - Ən böyük idxalçılardan birində nə baş verir?

***Azərbaycanda tanınmış şirkətin - “Mazarina Trade Company” MMC-nin külli miqdarda vergi borcu yaranıb. Yerli KİV yazır ki, şirkətin vergi borcu hazırda 17 516 103,32 manat təşkil edir.***

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına görə, ”Mazarina Trade Company” MMC 12 may 2017-ci ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 1000 manatdır. Şirkətin hüquqi ünvanı Bakı şəhəri Nəsimi rayonu, Bəşir Səfəroğlu ev 191, m 26-da yerləşir.

Ölkənin böyük idxalçı və paylayıcı şirkətlərindən sayılan, ancaq hazırda 17 milyon manatdan artıq borcu olan şirkətlə bağlı bir neçə ay əvvəl başqa bir diqqət çəkən məlumat yayılmışdı. Həmin məlumatda deyilirdi ki, ökənin böyük idxalçı və paylayıcı şirkəti olan ”Mazarina Trade Company” ölkədən pul çıxarmaqda günahlandırılır. Şirkət böyük məbləğdə cərimələnə bilər. O da bildirilirdi ki, şirkət İnzibati Xətalar Məcəlləsinin (İXM) 430.4-cü maddəsini pozub. Tələbi pozulan maddəyə əsasən, avans yolu ilə ödənilmiş valyuta vəsaitinin müqabilində müəyyən edilmiş müddətlərdə müvafiq mallar idxal edilmədikdə, işlər görülmədikdə və ya xidmətlər göstərilmədikdə ödənilmiş valyuta vəsaitinin xaricdən geri qaytarılmamasına görə, vəzifəli şəxslər inzibati xətanın bilavasitə obyekti olmuş valyuta vəsaiti məbləğinin on faizindən iyirmi faizinədək məbləğdə, hüquqi şəxslər inzibati xətanın obyekti olmuş valyuta vəsaiti məbləğinin iyirmi faizindən otuz faizinədək məbləğdə cərimə edilir.



Maraqlıdır ki, 2023-cü ildə də Mərkəzi Bank ”Mazarina Trade Company” şirkətinə eyni səbəbdən cərimə yazmışdı. Həmin vaxt bildirilirdi ki, şirkət barədə İXM-nin 430.4-cü (Avans yolu ilə ödənilmiş valyuta vəsaitinin müqabilində müəyyən edilmiş müddətlərdə müvafiq mallar idxal edilmədikdə, işlər görülmədikdə və ya xidmətlər göstərilmədikdə ödənilmiş valyuta vəsaitinin xaricdən geri qaytarılmaması) maddəsi ilə inzibati protokol tərtib olunub.

Xatırladaq ki, İXM-nin 430.4-cü maddəsinə əsasən, istənilən şirkət, sahibkar müəyyən mal almaq üçün ölkədən pul çıxarırsa, iki il ərzində həmin mal ölkəyə gətirilməlidir. İki il ərzində mal ölkəyə gəlmirsə, bu sahibkarın ölkədən pul çıxarması anlamına gəlir.

Bu maddənin qısa mahiyyəti belədir: sahibkarlar xaricə pul köçürür ki, nə isə alacaq. O pulu köçürəndən sonra iki il ərzində həmin malı ölkəyə gətirməlidir. Əgər malı ölkəyə gətirmirsə, sahibkar cərimələnir. Yəni bu halda hesab olunur ki, şirkət, sahibkar ölkədən pul, valyuta çıxarıb.

Ötən ilin payızında isə ”Mazarina Trade Company” MMC-nin qanuni təmsilçisi Məmmədov Qədir Şirsoltan oğluna inzibati protokol yazıldığı məlum olmuşdu. Bu barədə məlumatda deyilirdi ki, Q.Məmmədov barəsində protokol Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən İnzibati Xətalar Məcəlləsinin 192.1-ci (Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə fiziki şəxslər min manatdan iki min manatadək məbləğdə, vəzifəli şəxslər üç min manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər iyirmi min manatdan iyirmi beş min manatadək məbləğdə cərimə edilir) və 192.4-cü (İşçinin əmək və məzuniyyət haqlarının, ezamiyyə xərclərinin, əmək qanunvericiliyində nəzərdə tutulmuş müavinət və digər ödənişlərin hesablanmasında və ödənilməsində, riyazi hesablamalar nəticəsində yol verilən nöqsanlar istisna olmaqla, qanun pozuntularına yol verilməsinə görə, vəzifəli şəxslər yeddi yüz manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir) maddələrinə əsasən tərtib olunub.

Onu da deyək ki, ”Mazarina Trade Company” MMC 2017-ci ilədək ”Mazarina” MMC adı ilə fəaliyyət göstərib. 2017-ci ildə isə şirkət rebrendiq edib.

”Mazarina” MMC ”Gəncə Şərab-2” ASC ilə birlikdə şərab və digər alkoqollu məhsulların istehsalı və satışına başlayıb. 2001-ci ildən etibarən şirkət dünya istehsalçıları ilə müqavilələr imzalayıb və Azərbaycan bazarında mühüm yer tutub.

Şirkətin saytında qeyd edilib ki, ”Mazarina Trade Company”nin hədəfi Azərbaycanın distribütor və logistika bazarının ən böyük operatoru və Azərbaycanın əhəmiyyətli yerli idxalçısı olmaqdır.

”Mazarina Trade Company” MMC Azərbaycana ”Henkel”, ”Garnier”, ”Canbebe”, ”Raid”, ”Heinz”, ”Kodak”, ”Glade”, ”Camsil”, ”Avon” və s. məhsulları idxal edir.

Onu da deyək ki, şirkət hazırda fantastik məbləğdə vergi borcunun yaranması ilə bağlı yayılan məlumatlara dair hər hansı şərh verməyib.

***Toğrul Əliyev***



# "İşğaldan azad edilən torpaqlara yeni həyat qayıdır" - Millət vəkili

***”İşğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması müasir tariximizin ən önəmli mərhələlərindən biridir. Həmin layihələr vətəndaşların rifahının daha da yaxşılaşmasına və bölgələrin sosial-iqtisadi inkişafının sürətlənməsinə xidmət edir. Bu kontekstdə Ağdamda aparılan genişmiqyaslı işlər Böyük Qayıdış Proqramının əyani təzahürü kimi dəyərləndirilir”.***

Bunu ”Unikal”a açıqlamasında Milli Məclisin deputatı Asif Əsgərov deyib. Parlamentari bildirib ki, Ağdam rayonu 1930-cu ildə yaradılmış və ümumi sahəsi 1094 kvadrat kilometr təşkil etmişdir.

”Rayonda relyef əsasən düzənlik olsa da, qismən dağlıq hissələr də mövcuddur. Ağdam Qarabağın mərkəzində, Qarabağ dağ silsiləsinin şimal-şərq ətəklərində və Kür-Araz ovalığının qərb hissəsində yerləşir. Bu strateji mövqe bölgəyə həm tarixi, həm müdafiə, həm də iqtisadi baxımdan xüsusi əhəmiyyət verir. Ermənistanın təcavüzü nəticəsində Ağdam uğrunda gedən döyüşlər 1993-cü il 23 iyul tarixində rayon ərazisinin 73 faizinin işğalı ilə başa çatmışdır. 1993-cü il 29 iyul tarixində BMT Təhlükəsizlik Şurası 853 saylı qətnaməni qəbul etmiş və işğalçı qüvvələrin dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etmişdir. Vətən müharibəsində qazanılmış Qələbədən sonra imzalanmış Üçtərəfli Bəyanata əsasən, 20 noyabr 2020-ci il tarixində Ağdam rayonunun işğal olunmuş ərazisi Azərbaycana təhvil verilmişdir. Bu tarixi hadisə nəticəsində bölgənin təhlükəsizliyi və gələcək inkişafı baxımından yeni imkanlar yarandı.

Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli Sərəncamı ilə işğaldan azad edilmiş ərazilərdə şəhər günləri təsis edilmişdir. Həmin Sərəncama əsasən, 20 noyabr Ağdam şəhəri günü olaraq müəyyən olunmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 16 avqust tarixli qərarı ilə “Ağdam şəhərinin 2040-cı ilədək inkişafına dair Baş Planı” təsdiq edilmişdir. Bu plan çərçivəsində Ağdam Azərbaycanın dördüncü böyük şəhəri kimi müasir, yaşıl və rahat yaşayış məkanına çevriləcəkdir. Dövlətimizin başçısının müvafiq Fərmanı ilə yaradılmış Ağdam Sənaye Parkı 190 hektar ərazini əhatə edir. Park işğaldan azad edilmiş ərazilərin iqtisadi bərpası, Qarabağın sənaye potensialının reallaşdırılması, sahibkarlığın dəstəklənməsi və məşğulluğun artırılması məqsədilə fəaliyyət göstərir. Burada 28 rezident fəaliyyət göstərir, ümumi investisiyaların həcmi 260 milyon manatdan çoxdur və 938 nəfər daimi işlə təmin edilmişdir.

Bərdə-Ağdam dəmir yolu xəttinin ikinci mərhələsi çərçivəsində inşa edilmiş Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi 10 may 2025-ci il tarixində istifadəyə verilib. Kompleks 8 hektarlıq ərazini əhatə edir və müasir standartlara uyğun gözləmə zalları, xidmət məkanları, restoranlar, mağazalar və 350 metrlik qapalı dəmir yolu platforması ilə seçilir.

Beləliklə, Ağdam şəhəri günü işğaldan azad edilmiş torpaqlarda həyata keçirilən sistemli bərpa və yenidənqurma proseslərinin parlaq göstəricisi olaraq şəhərin müasir, komfortlu və dinamik yaşayış məkanına çevrilməsini nümayiş etdirir. Bu əlamətdar tarix böyük qayıdışın rəmzi olmaqla yanaşı, bölgənin dayanıqlı inkişafına olan inamı daha da gücləndirir”.

***Ağarza Elçinoğlu***

# Əlilliyi olan şəxslərlə bağlı yeni qərar



***"Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası"nda dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, təqsirkar işəgötürən yenidən təşkil edildiyi halda əlilliyi olan şəxslər onun hüquqi varisi tərəfindən sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunurlar.

Növbə çatdıqda Xidmətlər Agentliyinin yerli qurumu və ya Təminat Agentliyinin müvafiq "DOST" mərkəzi tərəfindən sanatoriya-kurort müəssisəsi və sanatoriya-kurort putyovkasının (yollayışının) vaxtı barədə əlilliyi olan şəxsin, əlilliyi olan uşaqlara münasibətdə onların qanuni nümayəndələrinin əlaqə vasitələrindən birinə sanatoriya-kurort müəssisəsinə getmə vaxtından ən azı 7 (yeddi) iş günü əvvəl məlumat göndərilir və həmin şəxslər ən azı 3 (üç) iş günü əvvəl sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunurlar. Əlilliyi olan şəxs (qanuni nümayəndə) məlumatı aldıqdan sonra 3 (üç) iş günü ərzində sanatoriya-kurort müəssisəsinə gedib-getməyəcəyi barədə yazılı, şifahi və ya elektron formada Xidmətlər Agentliyinin yerli qurumunu və ya Təminat Agentliyinin müvafiq "DOST" mərkəzini məlumatlandırmalıdır. Əlilliyi olan şəxs (qanuni nümayəndə) sanatoriya-kurort putyovkası(yollayışı) ilə təmin olunması təsdiq edildikdən sonra il ərzində iki dəfədən çox olmayaraq sanatoriya-kurort müəssisəsinə getməyəcəyi barədə Xidmətlər Agentliyinin yerli qurumunu və ya Təminat Agentliyinin müvafiq "DOST" mərkəzini bu Qaydada nəzərdə tutulan müddətdə məlumatlandırmadıqda və (və ya) təklif olunan sanatoriya-kurort putyovkasından (yollayışından) imtina etdikdə növbədən çıxarılır və əlilliyi olan şəxsin (qanuni nümayəndənin) əlaqə vasitələrindən birinə bu barədə məlumat göndərilir.

Növbədən çıxarılmış əlilliyi olan şəxs (qanuni nümayəndə) növbədən çıxarıldığı gündən 5 (beş) iş günü sonra yenidən növbəyə götürülmək üçün Xidmətlər Agentliyinin yerli qurumuna və ya Təminat Agentliyinin "DOST" mərkəzinə müraciət edə bilər. Qərara əsasən, orqanizmin funksiyasının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsin, həmçinin əlilliyi olan uşağın müşayiətçiyə ehtiyacı olduqda, Fərdi Reabilitasiya Proqramının tibbi reabilitasiya bölməsində bu barədə qeyd aparılır. Orqanizmin funksiyasının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsi və ya əlilliyi olan uşağı müşayiət edən şəxslər sanatoriya-kurort putyovkası (yollayışı) ilə həmin şəxslərin sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunduqları qurum tərəfindən təmin olunurlar.

Əlilliyi olan uşağın müşayiətçisi qismində uşağın valideynləri, digər qanuni nümayəndələri (qəyyumları, övladlığa götürənləri, himayəçiləri) və ya valideynin icazəsi ilə etibarnamə verilmiş digər şəxslər də müəyyən oluna bilərlər. Əlilliyi olan uşağın valideyninin (digər qanuni nümayəndəsinin) və ya orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsin Xidmətlər Agentliyinin yerli qurumları və ya Təminat Agentliyinin "DOST" mərkəzlərinə yazılı və ya elektron müraciəti əsasında müşayiətçinin sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunduğu müddət ərzində bir dəfədən çox olmayaraq dəyişdirilməsinə yol verilir. Sanatoriya-kurort müəssisələri əlilliyi olan şəxsin sanatoriya-kurort müəssisəsinə qəbul olunduğu və həmin müəssisədən buraxıldığı tarix, habelə aparılmış müalicələrin nəticələri barədə məlumatları və "Geri qayıtma" talonunu müalicə başa çatdıqdan sonra 30 (otuz) gün müddətində aidiyyəti quruma təqdim edir.

Xidmətlə Agentliyinin yerli qurumu və ya Təminat Agentliyinin "DOST" mərkəzi daxil olmuş məlumatları 3 (üç) iş günü müddətində MEİS-in "Sanatoriya-kurort" altsisteminə daxil edir və həmin məlumatlar avtomatik olaraq Fərdi Reabilitasiya Proqramının yerinə yetirilməsi barədə hesabatda əks olunur və onun putyovkanın (yollayışın) istifadəsini təsdiq edən sənəd kimi saxlanılması təmin olunur. İşləyən əlilliyi olan şəxslərə münasibətdə isə "Geri qayıtma" talonunun qeydiyyatının aparılması və onun saxlanılması məsələləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə"yə uyğun təmin edilir".

# Məhkəmədən Şabranın icra başçısına bəd xəbər

## Asif Hüseynovun xüsusi ittiham qaydasında şikayəti niyə baxışdan çıxarıldı?

***Şabran rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynovun xüsusi ittiham qaydasında yerli məhkəməyə təqdim etdiyi şikayətə baxılmasının mümkünsüz olduğu ortaya çıxıb. Bu barədə noyabrın 19-da həmin şikayətlə bağlı məhkəmə baxışı davam etdirilərkən məlum olub.***

Musavat.com-un yazdığına görə, icra başçısı rayonun Uzunboyad kənd sakinləri Səbirə Vəliyeva və oğlu Vüsal Muradovun barəsində Cinayət Məcəlləsinin 147-ci (böhtan) maddəsi üzrə xüsusi ittiham qaydasında şikayətində, hər iki şəxsin qeyd olunan maddələrin sanksiyası həddində cəzalandırılmasını tələb edib.



Başçını narazı salan isə kənd sakinlərinin mətbuat üzərindən ondan pullarını istəmələridir. Belə ki, Şabran rayon Uzunboyad kənd sakini Vüsal Muradov mətbuata müraciət edərək Şabran rayon İcra Hakimiyyətinin rəhbəri Asif Hüseynovun onlara olan borcu ödəməməsindən şikayətlənib. Kənd sakini iddia edir ki, anası Səbirə Vəliyeva 2022-ci ildə ümumi dəyəri 10 min 500 manat olan 15 ton toxumluq arpanı icra başçısına nisyə satsa da, pulunu ala bilməyib. Arpa satılan zaman icra başçısı özü qapıya gəldiyi üçün, ona inanıblar və alış-verişlə bağlı hər hansı sənəd imzalamayıblar. "Yox, sənəd yox. Elə-belə inandıq da. Dedik daha bu boyda rayonun başçısıdır. Mən onunla sənəd imzalayım, notariusa aparım, qol çəkdirim ki, nisyə verirəm? Elə olmur axı, ay müəllim, ayıbdır. Dedi, verdim. Mən də inandım ki, daha bu boyda rayonun başçısıdır da, yalan danışmaz", - Vüsal Muradov "BBC Azərbaycanca"ya demişdi. Həmin müsahibəsində Vüsal Muradov qeyd etmişdi ki, 1995-ci ildən toxumluq arpa əkməklə məşğul olub, ailəsini bu kiçik təsərrüfatla dolandırıb. Sitat: "3 ildir icra başçısı pulumuzu verməyib üçün, artıq sahəni normal əkib-becərə də bilmirik. İşlərin qızğın vaxtıdır. Texnikalar düzəlməlidir, işlər görülməlidir. Pulumuzu vermir ki, işimizi görək".

Kənd sakini deyib ki, pulu almaq üçün müvafiq qurumlara şikayət edib, ancaq nəticə olmayıb. Prezident Administrasiyasının əməkdaşı Habil Əzməmmədov 2025-ci il oktyabrın 20-də BBC-yə bildirib ki, icra başçısının vətəndaşı qəbul etməməsi ilə bağlı məsələyə aydınlıq gətiriləcək və gün ərzində kənd sakininin icra başçısı ilə görüşü təmin ediləcək. Şikayətlə bağlı isə qurumun əməkdaşı deyib ki, vətəndaş problemin həlli ilə bağlı məhkəməyə müraciət etməlidir. "Burada arbitr məhkəmədir. Hərə öz sübutunu ortaya qoymalıdır. Məhkəmə artıq araşdırmalı və qərar qəbul etməlidir ki, kim burada dələduzluq edib, etibar və inamdan sui-istifadə edib aldadıbdır. Orada şahidlər olacaq da, deyəcək gözümüzün qabağında yığmışıq, aparıb. Bir nəfərin işi deyil axı 15 ton taxılı yığmaq. Ona görə vətəndaşa məhkəməyə müraciət etməsi tövsiyə olunur", - Habil Əzməmmədov deyib.

Oktyabrın 20-də ailə deyib ki, BBC-yə şikayətdən sonra onlara Şabran rayon İcra Hakimiyyətinin rəhbəri Asif Hüseynovun Səbirə Vəliyeva və oğlu Vüsal Muradovla görüşmək istədiyi bildirilib. Bundan bir neçə gün sonra isə Şabran Rayon Məhkəməsinə icra başçısı Asif Hüseynovun xüsusi ittiham qaydasında şikayəti daxil olub.

Noyabrın 19-da keçirilən məhkəmə iclasında icra başçısının şikayəti üzrə araşdırma zamanı müəyyən edilib ki, iş üzrə cavabdehlər ilkin olaraq müraciət etdikləri media resursu Xaçmaz rayonu ərazisində yerləşir. Bunu əsas götürən məhkəmə işə aidiyyatı üzrə baxılmasının vacibliyini vurğulayıb, şikayətə Şabran Rayon Məhkəməsində baxılmasının mümkünsüzlüyü diqqətə çatdırılmaqla baxışdan çıxarılıb. Bundan sonra Şabran İcra Hakimiyyətinin başçısı Asif Hüseynovun hansı qərar verəcəyi hələ ki, bilinmir. Onun Xaçmaz rayon Məhkəməsinə müraciət edib-etməyəcəyi haqqında məlumat yoxdur.

Maraqlıdır ki, Şabran Rayon Məhkəməsinin adıçəkilən rayon icra başçısı tərəfindən xüsusi ittiham qaydasında təqdim olunan şikayətinin baxışdan çıxarılması A.Hüseynov barədə son günlər ölkə mətbuatında yayılan bir məlumatın fonunda baş verib. Belə ki, Şabran rayonunda məskunlaşan keçmiş məcburi köçkün və vaxtilə bu rayonda vəzifə tutmuş Məhəmməd Məmmədov 7times-ə açıqlama verərək icra başçısının barəsində dörd aylıq həbs qəti-imkan tədbiri seçilmiş Ramiz Mehdiyev üçün vaxtilə mülklər tikdirdiyini, torpaq sahələri bağışladığını iddia edib. Onun həmin iddiası bir neçə gündür mediada, sosial şəbəkələrdə yayılsa da, qarşı tərəf deyilənlərə hər hansı reaksiya verməyib, onun sözlərini nə təsdiq, nə də təkzib edib.

Xatırladaq ki, vaxtilə ARDNŞ-in Heydər Əliyev adına Neft Emalı Zavodunda və Sosial İnkişaf İdarəsində müxtəlif vəzifələrdə çalışan 44 yaşlı A.Hüseynov 2015-ci ilin payızında Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilib. Dörd il həmin postu tutduqdan sonra - 2019-cu ildə Şabran Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə gətirilib.

***Toğrul Əliyev***

## 5.3.17. ekologiya və ətraf mühitin mühafizəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Elektrikli avtomobillərə vergi güzəştləri başa çatır-ekologiya üçün geriyə addım olacaqmı?

## Ekspertlər karbon emissiyalarının azalması üçün elektrik avtomobillərinə ƏDV güzəştinin uzadılmalı olduğunu söyləyirlər

***Son illərdə dünya üzrə iqlim dəyişikliyi, havanın çirklənməsi və karbon emissiyalarının artması ilə bağlı narahatlıqlar ekoloji siyasətin əsas istiqamətinə çevrilib. Bu məsələdə nəqliyyat sektorunun rolu xüsusilə böyükdür. Çünki, bu sahə qlobal karbon qazı emissiyalarının təxminən 25%-ni təşkil edir. Azərbaycan da bir neçə ildir ki, ekoloji təmiz nəqliyyat vasitələrinin, elektrikli və hibrid avtomobillərin ölkəyə idxalını stimullaşdıran tədbirlər görür.***

Azərbaycanda hazırda elektrikli və hibrid avtomobillərin idxalı və satışı əlavə dəyər vergisindən (ƏDV) azaddır. Azərbaycan hökuməti 2022-ci ildən etibarən elektrik mühərrikli avtomobillərin idxalına vergi güzəştləri tətbiq edir. Bu addım ölkədə elektromobillərin yayılmasını sürətləndirib. Etiraf edək ki, Bakı və digər iri şəhərlərdə havanın çirklənməsinin əsas səbəblərindən biri avtomobil tıxaclarıdır. Buna görə elektromobillərin artması şəhər ekosisteminin yaxşılaşmasına müsbət təsir göstərə bilər.

Lakin elektrik mühərrikli avtomobillərin idxalına vergi güzəştlərinin müddəti 2026-cı il yanvarın 1-də başa çatacaq.

Mütəxəssislərin qənaətinə görə, əgər 2026-dan sonra yeni güzəştlər və ya subsidiyalar tətbiq olunmasa, elektrikli avtomobillərin qiyməti ən azı 20-30% bahalaşa bilər. Bu da idxalın və satışın azalmasına, əhalinin yenidən benzin və dizel modellərinə yönəlməsinə səbəb ola bilər.

İqtisadçı-ekspert Xalid Kərimli "Unikal" qəzetinə müsahibəsində bildirib ki, ən optimal yanaşma güzəştlərin tam ləğvi deyil, mərhələli azaldılması olardı: "Bu halda bazar tədricən adaptasiya olunar, istehlakçılar üçün elektrikli avtomobillər əlçatan qalardı, həmçinin də ekologiyaya müsbət təsir davam edərdi".

Müsahibimiz bildirib ki, son illərdə bu güzəştlər ölkəyə gətirilən "yaşıl" nəqliyyat vasitələrinin sayını artıraraq ekoloji vəziyyətin yaxşılaşmasına töhfə verib: "İndi isə bu qərarın ekoloji nəticələri cəmiyyətdə müzakirə mövzusuna çevrilib.

Mən əlavə dəyər vergisindən azad olma ilə bağlı güzəşt müddətinin uzadılacağını gözləyirəm. Avtomobil parkının yenilənməsi prosesi başa çatanda bu güzəşt ləğv edilə bilər. Hazırda avtomobil parkının yenilənməsi prosesi hələ davam edir və bu güzəştin müddətinin uzadılacağını düşünürəm".



Ekspert həmçinin bildirib ki, əgər əlavə dəyər vergisindən azad olma ilə bağlı güzəştin müddəti uzadılmasa, elektrikli və hibrid avtomobillərin qiyməti 18 faiz bahalaşa bilər: "Həmçinin əgər güzəşt ləğv edilsə, elektrikli və hibrid avtomobillərin cəlbediciliyi aşağı düşə bilər. Bu da benzin və dizellə işləyən avtomobillərə tələbatı müəyyən qədər artıra bilər. Əgər güzəşt ləğv edilsə, köhnə maşın bazarında əhəmiyyətli qiymət dəyişikliyi gözləmirəm".

Müsahibimiz onu da əlavə edib ki, elektrikli avtomobillər şəhərlərdə havanın keyfiyyətinə birbaşa təsir göstərir. Onların sayının artması nəticəsində zərərli qazların, toz hissəciklərinin və səs çirklənməsinin azalması müşahidə olunur. Əgər idxal tempi ləngisə, bu müsbət tendensiya zəifləyə bilər.

O, əlavə edib ki, hazırda ölkədə ümumi avtomobil parkında elektrik və hibrid avtomobillərin payı hələ də çox azdır. Vergi güzəştlərinin bitməsi bu payın artım tempini yavaşıda bilər və Azərbaycanın "yaşıl nəqliyyat" keçidini ləngidə bilər.

Məlumata görə, elektrikli və hibrid avtomobillərinə dair güzəştin uzadılması üçün qiymətləndirmə aparılır.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Dövlət proqramlarının idarə edilməsi şöbəsinin müdiri Vüsal Abbasov Bakıda keçirilən beynəlxalq tədbirdə bildirib ki, Azərbaycanda elektrikli və hibrid avtomobillərə tətbiq edilən vergi güzəştləri təkcə ətraf mühitin mühafizəsinə deyil, həm də bu sahədə bazarın canlanmasına səbəb olub: "2022-ci illə müqayisədə 2024-cü ildə ölkədə elektrikli avtomobillərin sayı 10 dəfə, hibrid avtomobillərin sayı isə 2 dəfə artıb. Bu artım avtomobil parkının yenilənməsinə də təsir edib. Əgər 2022-ci ildə istehsal ili 5 ilə qədər olan minik avtomobilləri ümumi nəqliyyat vasitələrinin 4,6 faizini təşkil edirdisə, 2024-cü ildə bu göstərici 6,4 faizə çatıb".

V.Abbasov qeyd edib ki, vergi güzəştlərinin 2026-cı ilə qədər qüvvədə qalması planlaşdırılır: "2026-cı ildən sonrakı dövr üçün güzəştlərin davam etdirilib-etdirilməməsinə dair qiymətləndirmə aparılır. Vəziyyət təhlil olunaraq müvafiq təkliflər hazırlanacaq və hökumətə təqdim ediləcək".

Deputat Vüqar Bayramov da güzəşt müddətinin uzadılacağını gözləyir.

Deputat bildirib ki, hər il Vergi Məcəlləsinə müvafiq dəyişikliklər edilir: "Bu dəyişikliklərdə ya müəyyən güzəştlərin dairəsi genişləndirilir, ya da yeni güzəştlər tətbiq olunur. Bu baxımdan 2026-cı ildə də Vergi Məcəlləsində dəyişikliklərin davam etdiriləcəyi gözlənilən-dir. Güzəşt müddətinin uzadılıb-uzadılmaması məsələsi dəyişikliklər tətbiq edilən zaman bəlli olacaq".

V.Bayramov onu da vurğulayıb ki, əgər güzəştlər ləğv edilsə, bu, köhnə avtomobillərin qiymətlərinə təsir göstərməyəcək: "Çünki köhnə avtomobillərlə bağlı belə bir güzəşt yoxdur. Güzəştlər yalnız yeni və nisbətən yeni olan avtomobillərə tətbiq olunur. Əgər güzəşt müddəti uzadılmayacaqsa, o zaman xərc artımları müşahidə olunacaq. Bu da yeni avtomobillərin qiymətlərinə təsir göstərəcək. Amma bu, yenə də Vergi Məcəlləsinə hansı dəyişikliklərin edilməsindən asılı olacaq. Başqa sözlə, əgər güzəşt müddəti uzadılacaqsa, o zaman elektrikli və hibrid avtomobillərin ölkəyə idxal xərclərində və satış xərclərində hər hansı dəyişiklik baş verməyəcək. Güzəşt müddəti uzadılmayacağı təqdirdə isə xərclərdə və buna uyğun olaraq da qiymətlərdə artımları müşahidə edə bilərik".

Xatırladaq ki, Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2025-ci ilin yanvar-aprel aylarında Azərbaycana ümumi dəyəri 616,1 milyon dollar olan 33767 ədəd avtomobil gətirilib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə dəyər baxımından 22,6 faiz, say baxımından isə 21,3 faiz çoxdur. İdxalın əsas hissəsini minik avtomobilləri təşkil edib. Yalnız elektrik mühərriklə hərəkətə gətirilən nəqliyyat vasitələrinin sayı 609 ədəd olub.

***Gülayə Mecid***




# COP31-in ev sahibliyi ilə bağlı qərar Azərbaycana həvalə olundu

***COP29 çərçivəsində və COP30-a hazırlıq dövründə ölkələr arasında qazandığı etimad sayəsində COP prosesi çərçivəsində vacib missiyalar Azərbaycana həvalə olunub.***

"Unikal" xəbər verir ki, bu xüsusda, COP29 çərçivəsində qəbul edilmiş Bakı Maliyyə Hədəfi qərarına uyğun olaraq Azərbaycan və Braziliya COP29 və COP30 sədrlikləri olaraq qlobal iqlim maliyyəsinin 1.3 trilyon ABŞ dollarına yüksəldilməsinə dair "Bakıdan Belemə Yol Xəritəsi"ni hazırlayaraq COP30 çərçivəsində təqdim edib. COP-un iki Sədrliyinin birlikdə hazırladığı bu yol xəritəsi əksər dövlətlər tərəsindən yüksək dəyərləndirilib və müsbət qarşılanıb.

Həmçinin Braziliya tərəfinin xahişinə əsasən COP30-da qəbul edilməsi gözlənilən aşağıdakı 2 mühüm qərarla bağlı danışıqların aparılması və həmin sənədlərin razılaşdırılması Azərbaycana həvalə olunub:

- COP31-in ev sahibinin müəyyənləşdirilməsi ilə bağlı qərar

COP30 sədri Andre do Lago Azərbaycan xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və Braziliya XİN-in xüsusi tapşırıqlar üzrə səfiri Mauricio Lyrioya COP30 sədrliyi adına COP31-in ev sahibinin müəyyən edilməsi üzrə yüksək səviyyəli danışıqların aparılması səlahiyyətini verib. COP31-ə ev sahibliyi uğrunda Avstraliya və Türkiyə mübarizə aparır. Hazırda hər iki səlahiyyətli nümayəndə intensiv şəkildə Avstraliya və Türkiyə arasındakı danışıqlara vasitəçilik edir, həll yolunu müəyyən etməyə çalışır.

- COP30-un ən vacib mümkün nəticələrindən biri hesab edilən Paris Sazişinin Qlobal Qiymətləndirmə İcmalı (Global Stocktake-GST) ilə bağlı sənədin razılaşdırılması

- COP30 Sədri Andre do Lago Azərbaycan və Norveç nümayəndələrinə prosesə onun adından rəhbərlik etmək və dövlətlər arasında danışıqlar aparmaq mandatını verib. Bu danışıqlara Azərbaycan tərəfdən rəhbərliyi xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Norveç tərəfdən isə bu dövlətin iqlim və ətraf mühit naziri Andreas Bjelland Eriksen edir.

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.



## Polis Akademiyası təbliğat-təşviqat tədbirlərini davam etdirir

***Polis Akademiyasının əməkdaşları tərəfindən həm paytaxtda, həm də müxtəlif bölgələrdə yerləşən məktəblərin müəllim və IX-XI sinif şagirdləri ilə keçirilən maarifləndirici görüşlər davam etdirilir.***

"Unikal" xəbər verir ki, təbliğat xarakterli tədbirlərdə şagirdlərə Daxili İşlər Nazirliyinin Polis Akademiyasında təhsil imkanları, tədris prosesi, Akademiyanın tarixi və daxili işlər orqanlarında xidmətin üstünlükləri haqqında ətraflı məlumatlar verilir.

Görüşlərdə iştirak edən şagirdlər təhsil müəssisəsində mövcud sosial təminatlar - geyim, yataqxana şəraiti və tətbiq olunan müasir tədris texnologiyaları ilə də tanış edilirlər.

Şagirdlərə "Hüquqşünaslıq" və "İnformasiya təhlükəsizliyi" ixtisasları üzrə qəbul şərtləri geniş şəkildə izah olunur, Akademiyanın fəaliyyəti ilə bağlı videoçarxlar nümayiş etdirilir və məlumatlandırıcı lifletlər təqdim edilir.

Polis Akademiyasının keçirdiyi bu tədbirlər şagirdlər tərəfindən maraqla qarşılanır, sənəd qəbulu və onları maraqlandıran digər suallar cavablandırılır.

## Naxçıvanda payızlıq əkin mövsümü davam edir

***Hazıradək 11 min hektardan artıq sahədə şum, 8 min hektara yaxın ərazidə isə səpin aparılıb.***



"Unikal" xəbər verir ki, əkin prosesinin effektivliyini artırmaq məqsədilə bölgələrə 1000-dən artıq kənd təsərrüfatı texnikası - traktorlar, səpin aqreqatları və torpaq yumşaldıcıları cəlb edilib. Bununla yanaşı, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təşkil olunan səyyar aqronom xidməti də fəaliyyətini davam etdirir. Mütəxəssislər fermerlərə toxum seçimi, səpin norması, torpaq hazırlığı və suvarma ilə bağlı praktiki məsləhətlər verirlər.

Bu barədə Nazirliyin Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin müdiri Məhəmməd Zeynalov məlumat verib. O bildirib ki, əkin və suvarma prosesləri üzrə bütün rayonlarda gündəlik monitorinqlər aparılır.

"Fermerlərlə mütəmadi iş aparılır və sahələrdə vəziyyətin operativ qiymətləndirilməsi davam etdirilir. Cari mövsümdə yağıntıların əvvəlki illərlə müqayisədə az olması suvarma prosesinə müəyyən təsir göstərir. Mövcud resurslardan səmərəli istifadə olunması və fermerlərin ehtiyaclarının vaxtında qarşılanması məqsədilə zəruri tədbirlər görülür," - deyə nazirlik rəsmisi əlavə edib.

# "Konstitusiya və Suverenlik ili" tarixi dönəm kimi qeyd olunur

***Azərbaycan Respublikasının Prezidenti 2025-ci ili "Konstitusiya və Suverenlik ili" elan edərək, ölkə tarixindəki mühüm tarixi mərhələləri qeyd etməyə qərar verib. Bu il Azərbaycan Respublikasının Konstitusiyasının qəbulunun 30 illiyi və dövlət müstəqilliyinin bərpasının 34-cü ildönümü ilə əlaqədardır.***

Azərbaycan Respublikasının Konstitusiyası, 12 noyabr 1995-ci ildə keçirilən ümumxalq referendumu ilə qəbul edilib. Bu, müstəqil Azərbaycanın ilk Konstitusiyasıdır və ölkənin hüquqi, siyasi, sosial və dövlət quruluşunun əsasını təşkil edir. Konstitusiya, Azərbaycanı demokratik, hüquqi və dünyəvi bir dövlət kimi formalaşdıran əsas sənəd olmuşdur. Dövlətin əsas qanunu kimi, Konstitusiya hüquqi sistemin təməlini qoyur və onun inkişafını təmin edir.

Konstitusiyanın qəbul edilməsi ilə, Azərbaycanın dövlət hüququnda qanunun aliliyi, insan və vətəndaş hüquqlarının müdafiəsi və ölkənin suverenliyi kimi əsas prinsiplər təsbit edildi. Konstitusiya, yalnız hüquqi çərçivə deyil, həm də beynəlxalq hüquq normalarına uyğun bir inkişafın təminatıdır. Azərbaycan Respublikasının Konstitusiyası, ölkə daxilində qanunvericilik və icra hakimiyyəti orqanlarının fəaliyyətini tənzimləyir, normativ hüquqi aktların həmin sənədə uyğun olmasını təmin edir.

Azərbaycanın müstəqilliyi, 1991-ci ilin 18 oktyabrında bərpa edildi. Dövlət müstəqilliyi Azərbaycanın tarixində ən mühüm hadisələrdən biridir. Bu, xalqın iradəsi və milli kimliyinin təsdiqi idi. Lakin müstəqilliyin bərpası ilə yanaşı, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi də daim təhdid altındadır. 1990-cı illərin əvvəllərində Ermənistanın işğalçılıq siyasəti və Azərbaycanın ərazilərinin 20 faizini işğal etməsi, ölkəmiz üçün ağır sınaqlar yaratmışdır. Bu dövrdə,




Xocalı soyqırımı və digər insanlıq əleyhinə cinayətlər baş vermişdir.

Buna baxmayaraq, Azərbaycan 2020-ci ildəki 44 günlük Vətən müharibəsində qələbə qazanaraq öz torpaqlarını işğaldan azad etmiş və ərazi bütövlüyünü bərpa etmişdir. Bu qələbə, Azərbaycanın suverenliyinin tam şəkildə bərpasına və beynəlxalq hüququn yerinə yetirilməsinə imkan yaratmışdır. Bu dövr həmçinin, Azərbaycan xalqının müstəqillik və ərazi bütövlüyü uğrunda apardığı mübarizənin nəticəsidir.

2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan edilməsi, Azərbaycanın dövlətçiliyinin möhkəmləndirilməsi və gələcək nəsillərə bu dəyərlərin ötürülməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu il ərzində Konstitusiyanın hüquqi, siyasi və sosial aspektlərinin yenidən qiymətləndirilməsi, hüquqi sistemin daha da təkmilləşdirilməsi məqsədilə bir sıra maarifləndirmə tədbirləri təşkil ediləcəkdir. Bu tədbirlər, Konstitusiyanın dövlət idarəçiliyindəki rolunun, hüquqi sabitlik və demokratik inkişafın təminatçısı olaraq möhkəmləndirilməsini hədəfləyir.

"Konstitusiya və Suverenlik ili" Azərbaycanın müstəqilliyinin və suverenliyinin qorunmasında yeni mərhələnin başlanğıcı olacaqdır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, müstəqillik Azərbaycanın ən dəyərli sərvətidir və hər bir vətəndaş bu sərvətin qorunmasında iştirak etməlidir. Bu il həm də dövlətin hüquqi inkişafının, suverenliyin əhəmiyyətini daha dərindən anlamaq və gələcək nəsillərə düzgün şəkildə çatdırmaq üçün bir fürsətdir.

Azərbaycan, bu gün qlobal və regional səviyyədə böyük bir gücə çevrilmişdir. Bu, yalnız ordusunun gücü və dövlətin siyasi müstəqilliyi ilə bağlı deyil, həm də xalqın birliyi və dövlətçilik ənənələrinin möhkəmlənməsi ilə əlaqədardır. Bu xüsusiyyətlər, Azərbaycanın beynəlxalq arenada söz sahibi olmasını təmin edir. Konstitusiya və suverenlik prinsipləri, Azərbaycanın müstəqil inkişafını və davamlı gələcəyini təmin etmək üçün əsas amillərdən biridir.

2025-ci ildə Konstitusiyanın və suverenliyin əhəmiyyəti bir daha vurğulanacaq, həmçinin hüquqi dövlətin inkişafı istiqamətində mühüm addımlar atılacaqdır. Bu il ərzində keçiriləcək tədbirlər, xalqın hüquqi şüurunun artırılmasına və dövlətin suverenliyinin möhkəmləndirilməsinə xidmət edəcəkdir. Hər bir vətəndaş, Konstitusiyanın prinsiplərinə hörmət etməli və müstəqilliyin qorunmasına töhfə verməlidir.

Nəticə olaraq, 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" olaraq qeyd edilməsi, Azərbaycanın hüquqi və dövlətçilik inkişafının daha da dərinləşdirilməsinə, xalqın hüquqi şüurunun yüksəlməsinə və müstəqilliyimizin gələcək nəsillərə ötürülməsinə böyük bir töhfə olacaqdır. Bu, Azərbaycan dövlətçiliyinin daha da möhkəmləndirilməsi üçün mühüm bir mərhələdir.

***Mustafayev Ceyhun,***
***Bərdə Rayon***
***Statistika İdarəsinin rəisi***

# Milli Kitabxanada "20 noyabr - Ağdam Şəhəri Günü" adlı virtual və eyniadlı ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub

***2020-ci il 20 noyabr - Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu hərbi-siyasi gücünü ortaya qoyaraq Ağdam rayonunu işğaldan azad edib. Ölkə rəhbərinin 31 iyul 2023-cü il tarixli sərəncamə əsasən hər il oktyabrın 25-i "Ağdam Şəhəri Günü" kimi qeyd olunur.***

XX əsrin sonlarında erməni işğalının ən ağır fəsadlarını yaşayan, "Qafqazın Xirosiması" adlanan Ağdam artıq viranlıq simvolu deyil - dirçəlişin, dövlət gücünün, milli iradənin rəmzidir.

27 il ərzində dağıdılmış, xarabalığa çevrilmiş cənnət diyarımız yenidən Azərbaycan dövlətinin nəfəsini duyur. Dövlətimizin həyata keçirdiyi "Böyük Qayıdış" proqramı çərçivəsində Ağdamda möhtəşəm layihələr gerçəkləşir, Ağdam sakinləri doğma yurdlarına qayıdır. Ağdam Sənaye Parkı, İmarət Tarix-Memarlıq Muzey Kompleksi, Zəfər Muzeyi, Muğam mərkəzi, mədəniyyət mərkəzləri, Ağdam City Hotel, Hilton Garden İnn Hotel, geniş bulvar və parklar və s. inşa edilir.

Milli Kitabxanada bu tarixi gün münasibətilə "20 noyabr - Ağdam Şəhəri Günü" adlı virtual və eyniadlı ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub.

Virtual sərgidə rəsmi sənədlər, fotoşəkillər, Ağdamda aparılan geniş quruculuq və yenidənqurma işləri, Böyük Qayıdışın yüksək səviyyədə təmin olunması, Vətən müharibəsi və Böyük Zəfəri əks etdirən kitablar, məqalələr və digər materiallar Azərbaycan və xarici dillərdə nümayiş olunur.

Virtual sərgi ilə https://anl.az/el/vsb/ zAgdam_sheher_Gunu/index.htm linkindən istifadə edərək tanış ola bilərsiniz.




Ənənəvi sərgidə isə Ağdam şəhərinin tarixi, toponimləri, işğalı zamanı dağıdılmış və viran edilmiş tarixi əhəmiyyət daşıyan maddi-mədəniyyət abidələri, Vətən müharibəsi və şanlı Qələbə, Ağdam rayonunun bərpasından və ölkə başçısının həmin bölgəyə səfərləri, tarix yazan qəhrəmanlar haqqında Azərbaycan və müxtəlif dillərdə kitablar nümayiş olunur.

# “Adın mübarək, Şəhidim” - Pəncəli Teymurovla bağlı tədbir keçirildi

***Bu başlıqlı tədbir Astara rayonunun Əzərüd kəndində bütün Azərbaycan xalqının qürur yeri olan şəhid Pəncəli Teymurovun ev muzeyində baş tutdu. Ölkə rəhbəri İlham Əliyev tərəfindən ölümsüzlüyə qovuşan Vətən oğluna “Milli Qəhrəman” adı verilməsi münasibətilə keçirilən tədbirin təşkilatçıları isə Lənkəran şəhər Heydər Əliyev Mərkəzi, Gənclərin İnkişaf və Karyera Mərkəzinin Lənkəran-Astara Regional nümayəndəliyi və Lənkəran şəhər R.Məmmədov adına 5 saylı tam orta məktəbi idi.***



Tədbirdə millət vəkilləri, Lənkəran şəhər Heydər Əliyev Mərkəzinin əməkdaşları, Astara Rayon İcra Hakimiyyətinin rəsmiləri, Lənkəran Dövlət Universitetinin müəllimləri, Lənkəran şəhər R.Məmmədov adına 5 saylı tam orta məktəbin direktoru və müəllim kollektivi, təhsil işçiləri, Astara rayon sakinləri, şəhid ailələri, müharibə veteranları və ictimaiyyət nümayəndələri iştirak etdilər.

Əvvəlcə Milli Qəhrəman, şəhid Pəncəli Teymurovun əbədi baş qoyduğu müqəddəs yer ziyarət olundu, sonra sinəsini Vətənə sipər edib canı, qanı bahasına onu yaşadan bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anıldı.

Azərbaycan Respublikasının Dövlət Himnin sədaları altında başlanan tədbirdə birinci çıxış edib şəhid Pəncəli Teymurovun qəhrəmanlığını, Vətən uğrunda göstərdiyi fədakarlığı böyük fəxrlə dilə gətirən Lənkəran şəhər Heydər Əliyev Mərkəzinin direktoru Reyhanə Sadıxova, həmçinin mərkəzin rəsm studiyasında Vətən sevdalının kətan üzərində çəkilmiş portretini ailəsinə hədiyyə etdi.

Millət vəkilləri Fariz İsmayılzadə, Anar İskəndərli, Rəşad Mahmudov, Vasıf Qafarov və Məşhur Məmmədov, Astara Rayon İcra Hakimiyyətinin rəsmiləri, Lənkəran-Astara Regional Təhsil İdarəsinin müdir müavini Rəhim Rəhimov, Gənclərin İnkişaf və Karyera Mərkəzinin Lənkəran-Astara regional nümayəndəliyinin rəhbəri Famil Məmmədov, Astara sakinləri, qazi və şəhid anaları, eləcə də bir sıra regional qurumların rəhbərləri söz alıb Prezident İlham Əliyevin şəhid ailələrinə göstərdiyi yüksək diqqət və qayğını xüsusi vurğuladılar, eyni zamanda ölkəmizdə Vətən uğrunda qəhrəmanlıq göstərib adını şanlı tariximizə yazan igidlərin xatirəsinin dövlət səviyyəsində daim uca tutulduğunu dedilər.

Tədbirdə Heydər Əliyev Mərkəzinin direktoru R.Sadıxovanın sözlərinə və bəstəkar Zəminə Taryelqızının musiqisinə bəstələnmiş “Heydər baba” mahnısı səslənən zaman könüllərə saf bir istək doldu. Eləcə bədii hissə ərzində oxunan şeirlər, ifa olunan musiqilər iştirakçılarda xoş ovqat yaratdı.

Şəhidin anası Vahimə xanım öz növbəsində çıxış edərək oğluna Milli Qəhrəman adı verilməsi münasibətilə Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirdi, şəhid ailələrinə göstərilən diqqət və qayğıya yüksək dəyər verdi.

Sonda Milli Qəhrəmanın ev muzeyi ziyarət olundu, xatirə şəkilləri çəkildi.

***Zəfər Orucoğlu, Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# 2025-ci ilin yanvar-sentyabr aylarında Abşeron rayonunun “Sosial-iqtisadi inkişafı” haqqında statistika

***Azərbaycanın bugünkü inkişafı respublikamızın regional və dünya iqtisadiyyatında rolunu və əhəmiyyətini xeyli yüksəldib. Ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində insanların rifahının yaxşılaşdırılması sahəsində möhtəşəm nailiyyətlər əldə edilib.***

İqtisadiyyatımızın inkişafında Abşeron rayonu da əhəmiyyətli inkişaf potensialına malikdir. Belə ki, rayonda fəaliyyət göstərən sənaye müəssisələri tərəfindən ilin doqquz ayı ərzində 823.3 milyon manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. Sənayenin inkişafında qeyri-dövlət sektorunun fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Qeyri-dövlət subyektləri tərəfindən hesabat dövrü ərzində 730.6 milyon manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da ümumi məhsulun 88.7 faizi qədərdir.

Rayonun sosial-iqtisadi infrastruktur sahələrindən biri olan nəqliyyat sektoru da cəmiyyətin inkişafında mühüm rol oynayır. Dövr ərzində fiziki şəxslər tərəfindən yük və sərnişin daşınmasından əldə olunan gəlir 33.0 milyon manat olmuşdur.

Hesabatların təhlilindən məlum olur ki, ilin bu dövründə müəssisə və təşkilatlara, həmçinin əhaliyə faktiki qiymətlərlə 20.9 milyon manatlıq rabitə xidməti göstərilməklə rayonun iqtisadi inkişafında rabitə və informasiya sahəsinin də əhəmiyyətli yeri var. Bu sahədə əldə olunan gəlirin 57.4 faizi qeyri-dövlət sektorunun payına düşür.

Yanvar-sentyabr aylarında rayonda 17.2 milyon manatlıq investisiya qoyuluşu olmuşdur ki, bu investisiyanın 173.7 milyon manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmişdir.

Cari dövr ərzində əhaliyə pərakəndə ticarət və iaşə şəbəkələrindən 1181.8 milyon manata bərabər istehlak malları satılmış və iaşə xidmətləri göstərilmişdir ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən faktiki qiymətlərlə 6.9 faiz çoxdur. Əhaliyə göstərilən ödənişli xidmətin dəyəri isə 141.8 milyon manat olmuş, bunun da 65.8 milyon manatı dövlət, 76.0 milyon manatı isə qeyri-dövlət mülkiyyətinə məxsus təşkilatlar tərəfindən əldə edilmişdir.

Abşeron rayonunda 2025-si ilin yanvar-sentyabr aylarında 460.0 hektar sahədə payızlıq və yazlıq dənli və dənli paxlalı bitkilərin (qarğıdalısız) əkini aparılmış və bu əkin sahəsindən 805.4 ton məhsul yığılmışdır.

Rayonun kənd təsərrüfatı müəssisələrində, əhali və kəndli fermer təsərrüfatlarında cari il oktyabr ayının 1-i vəziyyətinə 1873 baş iribuynuzlu mal qara, o cümlədən 10992 baş inək və camış, 7344 baş isə qoyun və keçi mövcud olmuşdur. Təqdim olunan statistik məlumatlara və müvafiq hesablamalara görə diri çəkidə 9509 ton ət, 33123 ton süd istehsal edilmişdir.



2025-ci il oktyabr ayının 1-i vəziyyətinə Abşeron rayonunda iqtisadiyyatın bütün sahələrini əhatə etməklə faktiki işləyənlərin sayı 51097 nəfər olmuş, bundan 13559 nəfəri dövlət, 37538 nəfəri isə qeyri-dövlət sektorunu əhatə etmişdir. Hesablanmış əməkhaqqı fondu 346184.2 min manat olmuşdur. Rayon üzrə bir işçiyə düşən orta aylıq əməkhaqqı 796.0 manat təşkil etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə faktiki işləyənlərin orta sayı 7.9 faiz, orta aylıq əməkhaqqı isə 7.7 faiz artmışdır. Rayonda sosial sahənin inkişafı da yüksək səviyyədə təmin olunur, quruculuq-abadlıq işləri davam etdirilir.

***Abşeron Rayon Statistika İdarəsinin rəis müavini Aygün Allahverdiyeva***

# "Bu, informasiya müharibəsində bizə bir işarədir" - Tural Məmmədov

***Bu gün The Ritz-Carlton otelində ”Proxima Cyber Security” tərəfindən təşkil edilən “Kibertəhlükəsizlik Günü” keçirilir. Tədbirin çərçivəsində kibertəhlükəsizlik üzrə strateji mövzuların müzakirəsi, eləcə də texniki sessiyaların və seminarların keçirilməsini nəzərdə tutulub.***

”Unikal”ın məlumatına görə, açılış nitqi ilə çıxış edən Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin baş idarə rəisinin müavini Tural Məmmədov qonaqları salamlayaraq, qeyd edib ki, ”Proxima” kimi böyük potensiala malik olan şirkətlər qarşılarına qoyacaqları məqsədlərdən biri də məhz yerli məhsulları ilə rəqəmsal suverenliyimizə dəstək olmasıdır.

“Qeyd etmək istəyirəm ki, bu həmdə ölkə Prezidentinin İnformasiya Təhlükəsizliyi ilə bağlı imzaladığı Strategiya ilə də qarşımıza qoyduğu əsas tapşırıqlardan biridir. Yerli məhsulların yaradılması və rəqəmsal suverenliyin vacibliyini 2 gün öncəki insidentdən də hiss elədik. 9000-dən çox ölkə saytının fəaliyyətinin dayanmasına bir “Cloudflare” məsələsi kimi baxmaq yalnış olardı. Bu xüsusən də özəl sektorun xaricdən asılılığına bariz nümunə idi. ?Fəaliyyəti dayanan resursların içində media resurslarının da xüsusi çəkisinin olması bizi informasiya müharibəsinə hazırlıq səviyyəmizi də diqqətdə saxlamalı olduğumuza bir işarədir. Aydındır ki, lokal mühafizə həlləri ucuz başa gəlmir.

Lakin dövlətimizin apardığı uğurlu siyasətin davamı olaraq bizim də həyata keçirdiyimiz informasiya təhlükəsizliyi siyasətində lokal həllərə üstünlük vermək və mühafizəni maksimal şəkildə lokal təmin etmək bizim prioritet istiqamətlərimizdəndir. Son 3 ildə bir sıra dövlət qurumlarında istifadə edilən “CloudFlare” kimi trafikin xaricə daşınması halı tərəfimizdən dayandırılmış və mühafizəsi AzStateNet üzərindən təmin edilmişdir. Ümumilikdə isə son 3 ildə 457 dövlət obyektinin şəbəkə təminatı AzstateNet üzərinə keçirilərək lokal mühafizəsi təmin edilmişdir. Həyata keçirdiyimiz sözügedən mühafizə siyasəti sadəcə internet informasiya ehtiyatları ilə bağlı deyil, bu yanaşma eyni zamanda xüsusi dövlət rabitəsində də şamil olunur. Belə ki, bu gün qlobal internetə çıxışda ölkəmizdə problem yaşamış olsa əgər bütün dövlət informasiya ehtiyatları lokal olaraq fəaliyyətlərini davam etdirəcək. Eyni zamanda bütün güc strukturlarını və kritik infrastrukturları təmin etdiyimiz xüsusi radiorabitə vasitələrimiz heç bir mobil şəbəkədən asılı olmadan tam funksional bütün ölkə ərazində fəaliyyət göstərməkdədir. Bununla yanaşı dövlət qurumlarına verdiyimiz TİMS tətbiqi də “Whatsapp” kimi aplikasiyalara alternativ kimi dövlət qurumlarında aktiv istifadə olunmaqda və xarici asılılığı minimuma endirməkdədir. Təbii ki, sadaladıqlarım həm görülən işlərin bir qismi, həm də hələdə görülməsi lazım olacaq işlərin çox az bir hissəsidir. Buradan bir daha bildirmək istəyirəm ki, yerli şirkətlərin inkişafı sadəcə onlara təsir etmir, bu həm ekosistemin inkişafına təkan verir, eləcə də bizim də dövlət qurumlarının təhlükəsizliyi üçün atacağımız bütün addımlara dolayı yolla böyük təsir göstərir” - deyə, Tural Məmmədov bildirib.

## ELAN

05.01.2010-cu il tarixdə 060010-Q3-0006 nömrə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Ağsu rayon Qeydiyyat şöbəsi tərəfindən dövlət qeydiyyatına alınmış “Musabəyli” sudan istifadə edənlər birliyi ləğv olunaraq hüquqi şəxsin qoşulma şəklində yenidən təşkili (birləşmə) formasında 21.04.2009-cu il tarixdə 060009-Q2-0003 nömrə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Ağsu rayon Qeydiyyat şöbəsi tərəfindən dövlət qeydiyyatına alınmış “Ağarx” sudan istifadəedənlər birliyinin bazasına qoşulmuş (birləşdirilmiş) və onun hüquqi varisidir.

02.03.2006-cı il tarixdə 0706-QB1-01 nömrə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Göyçay Bölgə Şöbəsi Qeydiyyat şöbəsi tərəfindən dövlət qeydiyyatına alınmış “Padarqışlaq” sudan istifadə edənlər birliyi ləğv olunaraq hüquqi şəxsin qoşulma şəklində yenidən təşkili (birləşmə) formasında 05.01.2010-cu il tarixdə 060010-Q3-0011 nömrə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Ağsu rayon Qeydiyyat şöbəsi tərəfindən dövlət qeydiyyatına alınmış “Cəfərli” sudan istifadəedənlər birliyinin bazasına qoşulmuş (birləşdirilmiş) və onun hüquqi varisidir.

44_27 IYUI-QARA.qxd 11/20/2025 9:41 PM Page 15



# İsrail ordusu Qəzza zolağını vurdu - Ölənlər var



***Atəşkəsə baxmayaraq, İsrail ordusu Qəzza zolağında geri çəkildiyi bölgələrə hücumlar təşkil edib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, İsrail ordusu Qəzza şəhərinin Zeytun və Şucayya məhəllələrinə və Qəzza zolağının cənubundakı Xan Yunisin Mavasi bölgəsinə hücum edib.

Qəzza Səhiyyə Nazirliyi hücumlarda 25 nəfərin öldüyünü, ən azı 77 nəfərin yaralandığını açıqlayıb.

*Gülayə Mecid*

# Müharibəni bitirmək üçün Ukraynanın qarşısına bu şərtlər qoyuldu

***ABŞ Ukrayna lideri Volodimir Zelenskiyə Ukraynanın Rusiya ilə müharibəni dayandırmaq üçün Amerika tərəfindən hazırlanmış çərçivə sənədini qəbul etməsi barədə siqnal göndərib.***

"Unikal" xəbər verir ki, bu barədə "Reuters" yazıb.

Sənədə əsasən, Kiyev ərazilərdən və bəzi silahlardan imtina etməlidir.

Anonim rəsmilər təkliflərə, digər məsələlərlə yanaşı, Ukrayna silahlı qüvvələrinin sayının azaldılmasını da daxil etdiyini bildiriblər.

"Financial Times" qəzeti əlavə detalları açıqlayıb: layihədə Ukraynanın Kiyevin nəzarəti altında olan ərazi də daxil olmaqla Donbasın qalan hissəsini Rusiyaya verməsi və silahlı qüvvələrinin sayının yarıya endirilməsi nəzərdə tutulub.

Başqa bir müddəaya görə, rus dili Ukraynada rəsmi dövlət dili kimi tanınmalı və Rus Pravoslav Kilsəsinin yerli yeparxiyasına rəsmi status verilməlidir.

*Ağarza Elçinoğlu*

# Tramp yenə Putindən narazılığını bildirdi

***ABŞ prezidenti Donald Tramp rusiyalı həmkarı Vladimir Putindən Ukraynadakı hərbi əməliyyatlara görə yenidən məyus olduğunu bildirib.***

"Unikal" xəbər verir ki, o, bu barədə ABŞ-Səudiyyə Ərəbistanı forumunda çıxışı zamanı danışıb.

Tramp səkkiz müharibəni həll etdiyini, lakin hələ bir müharibənin qaldığını bildirib.

"Prezident Putinlə yaxşı münasibətim olduğu üçün bunu həll etməyin daha asan olacağını düşünürdüm. Amma indi Putindən bir az məyus oldum və o, bunu bilir", - dövlət başçısı deyib.

Bu, amerikalı siyasətçinin rusiyalı həmkarından məyus olduğunu ifadə etdiyi ilk hal deyil. Bu ilin sentyabrında o, ən azı beş dəfə oxşar bəyanatlar verib.

*Gülayə Mecid*

# Zaxarova Ukraynanın Aİ-yə qoşulmasından danışdı

***Ukrayna Avropa Birliyinə qoşulmaq üçün heç bir meyarlara cavab vermir.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova açıqlayıb.

"Düşünürəm ki, Avropa Birliyinin necə işlədiyini və ölkələrin hansı meyarlara əsasən qoşulduğunu başa düşən insanlar Ukraynanın göstərilən meyarların heç birinə cavab vermədiyini aydın şəkildə başa düşürlər. Orada heç nə yoxdur: demokratiya yoxdur, məhkəmə sistemində şəffaflıq yoxdur, effektiv antikorrupsiya qanunvericiliyi yoxdur", - deyə diplomat qeyd edib.

*Ağarza Elçinoğlu*

# Mirzoyandan Naxçıvana gedən yolla bağlı açıqlama

***"Türkiyə ilə diplomatik münasibətlərin qurulması və sərhədlərin açılması Ermənistan üçün həqiqətən vacibdir".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan deyib.



"Azərbaycanla yaranmış sülhün daha da institusionallaşdırılması da vacibdir. Ermənistan hər iki istiqamətdə səmimi səylər göstərir. Lakin eyni zamanda, bu iki komponentin heç biri digəri ilə şərtlənmir və əgər onlar arasında səbəb-nəticə əlaqəsi görməyə çalışsaq, Türkiyə ilə münasibətlərin tam normallaşmasının Ermənistan və Azərbaycan arasındakı normallaşma prosesinə mənfi deyil, əksinə müsbət təsir göstərə biləcəyi ortaya çıxa bilər.

Nəqliyyat infrastrukturunun blokadasının qaldırılmasına gəldikdə isə, bu prosesin əsas prinsipləri 8 avqustda Vaşinqtonda keçirilən sülh sammitində razılaşdırılıb: ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, suverenlik, yurisdiksiya, qarşılıqlı hörmət. Bu çərçivələrdə müəyyən edilmiş TRIPP marşrutu həm Azərbaycanı Naxçıvanla, həm də Ermənistanı digər ölkələrlə, eləcə də bölgələri daha geniş coğrafiyada Ermənistan və Azərbaycan vasitəsilə birləşdirəcək. Ermənistan bunu mümkün qədər tez həyata keçirmək üçün maraqla fəal səylər göstərir", - deyə XİN rəhbəri qeyd edib.

*Ağarza Elçinoğlu*

# Sülh planı nədən ibarətdir? - Hər iki tərəfi çətin güzəştlər gözləyir

***ABŞ-nin Ukraynada müharibəyə son qoymağa dair sülh planı Kiyevi Rusiyaya əhəmiyyətli ərazi güzəştləri etməyə, sülhməramlı qüvvələrin yerləşdirilməsi və NATO-ya üzvlük tələblərindən imtina etməyə çağırır.***

"Unikal" xəbər verir ki, bunu "The Wall Street Journal" yazır. Amerika rəsmilərinin fikrincə, Birləşmiş Ştatlar Qəzzada atəşkəsə nail olmaq üçün istifadə etdiyi yanaşmadan istifadə etməyə çalışır. Nəşrin mənbələrinə görə, plan Ukraynanın hazırda Kiyevin nəzarətində olan ərazilər də daxil olmaqla, bütün şərq Donbas regionunu Rusiyaya verməsini nəzərdə tutur:

"Ukrayna ən azı bir neçə il Şimali Atlantika Müqaviləsi Təşkilatına üzvlüyündən imtina etməyə razılıq verməlidir. Kiyevə öz ərazisində beynəlxalq sülhməramlı qüvvələri yerləşdirməyə icazə verilməyəcək. Bunun müqabilində rəsmilər bildirirlər ki, Moskva Ukraynaya və ya digər Avropa ölkələrinə hücum etməyəcək və bu vədi qanunla təsdiqləyəcək".



Xatırladaq ki, ABŞ lideri Donald Tramp Rusiya və Ukrayna arasında müharibəyə son qoymaq üçün 28 bəndlik planı artıq təsdiqləyib. Məlumata görə, Ukrayna ordusunun bütün Donbasdan çıxarılması, Ukrayna Silahlı Qüvvələrinin sayı və döyüş hazırlığının azaldılması gözlənilir. Trampın planı həmçinin rus qoşunlarını Zaporojye və Xerson vilayətlərində ələ keçirdikləri ərazilərin bir hissəsini geri qaytarmağa məcbur edir. ABŞ dövlət katibi Marko Rubio artıq planı şərh edərək bildirib ki, ABŞ hər iki tərəfin mövqelərini nəzərə alaraq təkliflər hazırlayır və davamlı sülhə nail olmaq üçün hər iki tərəf çətin, lakin zəruri güzəştlərə getməlidir.

*Gülayə Mecid*

# "Qərb II Dünya Müharibəsinin dərslərini unudur" - Lavrov

***Qərb bu gün Nürnberqin nəticələrini və İkinci Dünya Müharibəsinin dərslərini unutmağa üstünlük verir.***

"Unikal" xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib.



Onun sözlərinə görə, tarixi yenidən yazmaq cəhdləri var və bu, ən aydın şəkildə Ukraynada özünü göstərir: "Tarixi yenidən yazmaq, Sovet İttifaqı xalqlarının və Qırmızı Ordunun Nasist Almaniyasının məğlubiyyətində həlledici rolunu azaltmaq, nasistləri və onların əlaltılarını haqlı çıxarmaq və işğalçıları azad edənlərlə eyniləşdirmək üçün kinayəli cəhdlər edilir. Bu, günümüzdə ən aydın şəkildə Ukraynada özünü göstərir, burada 2014-cü ildə NATO tərəfindən dəstəklənən çevriliş nəticəsində Rusiya ilə əlaqəli hər şeyə nifrət edən qüvvələr hakimiyyəti ələ keçirdilər".

*Ağarza Elçinoğlu*

# COP31 Türkiyədə keçiriləcək

***Avstraliya Baş naziri Anthony Albanese Birləşmiş Millətlər Təşkilatının İqlim Sammitinin 2026-cı ildə Türkiyədə keçiriləcəyini açıqlayıb.***

"Unikal" xəbər verir ki, Albanese sammitin Türkiyədə keçiriləcəyini, lakin hökumətlərarası danışıqlara Avstraliyanın sədrlik edəcəyini bildirib. "Bizim əldə etdiyimiz missiya həm Avstraliya, həm də Türkiyə üçün böyük bir qələbədir", - deyə Albanese qeyd edib.

Qeyd olunur ki, sammit Antalyada keçirilə bilər.

Bildirək ki, Avstraliya 31-ci Tərəflər Konfransına və ya COP31-ə ev sahibliyi etmək üçün Türkiyə ilə rəqabət aparırdı.

*Gülayə Mecid*

44_27 IYUl-QARA.qxd 11/20/2025 9:41 PM Page 16



# Gələn il şəhid ailələrinin mənzillərlə təminatına bu qədər vəsait ayrılıb

***"Son 7 ildə 4 milyon vətəndaşımızı əhatə edən 5 böyük sosial islahat zərfi icra edilmiş və bu islahatların illik əlavə maliyyə tutumu 7,6 milyard manat təşkil edib".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında "Dövlət sosial müdafiə fondunun və İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında" qanun layihələrinin müzakirəsi zamanı əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev deyib.



Nazir bildirib ki, Cari ildə 5-ci sosial islahat zərfi çərçivəsində 1 yanvar tarixindən minimum əməkhaqqı 16% artırılaraq 400 manata, 1 fevral tarixindən isə minimum pensiya 14.3% artırılaraq 320 manata çatdırılıb:

"Cari ildə əhaliyə pensiya ödənişləri ötən illə müqayisədə 10%, pensiyaların orta məbləği isə 9% artaraq 540 manat, yaşa görə pensiyanın orta məbləği isə yenə də 9% artaraq 576 manat təşkil edib. Əhaliyə dövlət büdcəsi hesabına ödənilən müavinət, eləcə də Azərbaycan Respublikasının Prezidentinin təqaüdü xərcləri artımların tətbiq edildiyi ötən ilin müvafiq ayları ilə müqayisədə 12%-dən çox artıb. Növbəti ilin dövlət büdcəsində sosialyönlü xərclər 2025-ci illə müqayisədə 236 milyon manat və ya 1,4% çox olmaqla 17 milyard 146 milyon manat təşkil edir. Sosialyönlü xərclərin dövlət büdcəsində xüsusi çəkisinin 41,1% olması nəzərdə tutulur ki, bu da son 7 ildə müvafiq istiqamətdə ayrılan vəsaitin həcminin 2,2 dəfə artımı deməkdir (7,8 mlrd. manatdan 17.1 mlrd. manata). Bununla yanaşı, 2026-cı ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat xərclərinin 4 milyard 873 milyon manat həcmində olması proqnozlaşdırılır.

Bu göstərici 2025-ci ilin proqnoz edilən göstəricisindən 121,2 milyon manat və ya 2,6% çoxdur. Bu da son 7 ildə bu istiqamətdə ayrılan vəsaitin həcminin 2,1 dəfə 2,3 mlrd. manatdan 4,9 mlrd. manata artması deməkdir. 2026-cı ilin dövlət büdcəsində sosial müavinət, təqaüd və kompensasiyalar üçün 2 milyard 144 milyon manat və ya 178.5 mln manat və ya 9.1% çox vəsait nəzərdə tutulub. Həmçinin növbəti ilin dövlət büdcəsində Ünvanlı dövlət sosial yardımı (ÜDSY) üzrə 465 milyon manat, haqqı ödənilən ictimai işlərin təşkili üzrə isə 141,7 milyon manat vəsait qoyulub. Dövlət icbari şəxsi sığorta vəsaiti hesabına növbəti ildə reabilitasiya vasitələrinin alınmasına 31,7 milyon manat nəzərdə tutulub. Həmçinin DSMF-nin investisiya gəlirləri və dövlət icbari şəxsi sığorta vəsaiti hesabına şəhid ailələrinin, müharibə əlillərinin mənzillərlə təminatına 50 mln. manat vəsaitin ayrılması nəzərdə tutulur".

***Anar Kəlbiyev***

# 2025-ci ilin yanvar-sentyabr aylarında Xızı rayonunun sosial-iqtisadi göstəriciləri belə olub

***Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları respublikamızın bütün bölgələrində olduğu kimi Xızı rayonunda da uğurla icra edilir. İllər birbirini əvəz etdikcə sosial rifahın nəbzi də yüksələn temp üzrə artır. Görülən işlərin, həyata keçirilən tədbirlərin iqtisadi göstəricilərin statistikasını hazırlamaq və cəmiyyətə təqdim etmək mühüm əhəmiyyətə malikdir. Belə ki, 2025-ci ilin yanvar-sentyabr ayları ərzində Xızı rayonunun sosial-iqtisadi göstəricilərinə nəzər salaq.***

2025-ci ilin yanvar-sentyabr aylarında rayonda 163074,3 min manatlıq və ya 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 15,2 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir. İstehsal edilmiş ümumi məhsul və göstərilmiş xidmətlərin həcmi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 138021,4 min manat, sənaye sahəsində 13385,3 min manat, tikinti sahəsində 3004,9 min manat, ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində 7398,7 min manat, nəqliyyat və anbar təsərrüfatı sahəsində 670,0 min manat, informasiya və rabitə sahəsində 594,0 min manat təşkil etmişdir. 2025-ci ilin yanvar-sentyabr aylarında 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə istehsal edilmiş ümumi məhsul və göstərilmiş xidmətlərin həcmi sənaye sahəsində 64,4 faiz, ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində 1,2 faiz , kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 12,3 faiz, tikinti sahəsində 39,9 faiz, nəqliyyat və anbar təsərrüfatı sahəsində 4,9 faiz, informasiya və rabitə sahəsində 29,4 faiz çox olmuşdur.

01.01.2025-ci il vəziyyətinə əhalinin ümumi sayı 16803 nəfər olmuşdur. Əhalinin ümumi sayının 52,4 faizini şəhər və qəsəbə, 47,6 faizini kənd əhalisi, 49,6 faizini kişilər, 50,4 faizini isə qadınlar təşkil edir. Təbii artım 33, doğulanların sayı 100 nəfər, ölənlərin sayı isə 67 nəfər olmuşdur. 65nikah və 26 boşanma halı qeydə alınmışdır.

Xızı rayonunda 5 mehmanxana hotel və mehmanxana tipli obyektlər qeydiyyatdan keçmiş və onların üçü fəaliyyət göstərmişdir. Bu mehmanxanalarda nömrələrin sayı 75 vahid, birdəfəlik tutumu 116 nömrədən ibarətdir. 2025-ci ilin yanvar-sentyabr aylarında həmin mehmanxanalarda 1071 şəxs yerləşdirilmişdir ki, onların da hamısı ölkə vətəndaşları olmuşdur. Keçən il ilə müqayisədə yerləşdirilmiş şəxslərin sayı 666 nəfər az olmuşdur. Gecələmələrin sayı 2025-ci ilin yanvar-sentyabr aylarında 1721 adam-gecə olmuşdur. 2025-ci ilin altı ayında mehmanxana hotel və mehmanxana tipli obyektlər məhsul (xidmət) satışından 253,9 min manat gəlir əldə etmişdir. Gəlirin 105,7 min manatı yerləşdirilmə, 148,2 min manatı iaşə xidmətlərdən əldə edilmişdir. Məhsulun (xidmətin) istehsalına çəkilən xərclər 330,2 min manat olmuş və onun 236,1 min manatı və ya 71,5 faizi əməkhaqqı xərcləri, 13,9 min manatı və ya 4,2 faizi içkilərin və yeməklərin hazırlanması üçün istifadə olunan ərzaq məhsullarının alınmasına çəkilən xərclər, 43,7 min manatı və ya 13,2 faizi yanacaq və enerji xərcləri, 6,7 min manatı və ya 2,0 faizi suyun alınması xərcləri, 24,2 min manatı və ya 7,3 faizi büdcəyə ödənilən ödənişlər, 4,9 min manatı və ya 1,5 faizi icarə xərcləri, 0,7 min



manatı və ya 0,2 faizi reklam xərcləri ödəmələri, olmuşdur.

2025-ci ilin yanvar-sentyabr aylarında quş əti də daxil olmaqla diri çəkidə 1213,0 ton ət, 1628,0 ton süd, 134073,0 min ədəd yumurta istehsal edilmiş, 2024-cü ilin müvafiq dövrünə nisbətən ət istehsalı 0,3 faiz, yumurta istehsalı 0,8 faiz artmış, süd istehsalı isə 0,1 faiz azalmışdır.

2025-ci ilin oktyabr ayının 1-i vəziyyətinə rayon üzrə 8662 baş iribuynuzlu mal-qara, o cümlədən 4132 baş inək və camış, 48397 baş qoyun və keçilər, 18 baş donuz mövcud olmuşdur. İribuynuzlu mal-qaranın 47,7 faizini inək və camışlar təşkil edir. 2025-ci ilin yanvar-sentyabr aylarında diri çəkidə ət istehsalı 4346,0 ton, süd istehsalı 5294,0 ton, yumurta istehsalı 382706 min ədəd olmuşdur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 6,6 faiz, süd istehsalı 0,8 faiz, yun istehsalı isə 23,1 faiz azalmışdır. Yumurta istehsalı 4,1 faiz artmışdır. Ümumilikdə bütün müəssisələr üzrə cəmi quşların sayı 3020412 baş olmuşdur.

***Xızı Rayon Statistika İdarəsinin rəisi Rövşən Quliyev***



# "Təhlükəsizlik sahəsinə investisiya artırılmalıdır" - Arzu Nağıyev

***"2026-cı il büdcəsində müdafiə və milli təhlükəsizlik üzrə 8 milyard 714,8 milyon manatlıq xərclər (xüsusi çəkisi 20,9 faiz) Azərbaycanın daxili sabitliyini, müdafiə qabiliyyətini və regional təhlükəsizlik siyasətini gücləndirməyə yönəlib".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında 2026-cı ilin dövlət büdcəsinin müzakirəsi zamanı parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, deputat Arzu Nağıyev deyib.

Komitə sədri bildirib ki, 2026-cı il üçün təhlükəsizlik büdcəsinin artırılması məsələsi bu gün müzakirə etdiyimiz ən vacib istiqamətlərdən biridir . Onun sözlərinə görə, bu qərar təkcə maliyyə məsələsi deyil, eyni zamanda Azərbaycanın müasir təhlükəsizlik konsepsiyasının reallıqlara uyğun yenilənməsi deməkdir:

"Cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan regionun ən güclü dövlətlərindən birinə çevrilib. Lakin bu gücü qorumaq, möhkəmləndirmək və gələcək nəsillərə ötürmək üçün təhlükəsizlik sahəsinə investisiya artırılmalıdır. Biz elə bir dövrdə yaşayırıq ki, təhlükəsizlik anlayışı artıq yalnız sərhədlərin qorunması və hərbi müdafiə ilə məhdudlaşmır. Bu gün təhlükəsizlik həm də informasiya müharibələrinə qarşı mübarizə, kiberməkanda müdafiə, enerji və kommunikasiya infrastrukturlarının qorunması, ictimai sabitliyin və daxili asayişin təminatı deməkdir. Azad edilmiş torpaqlarda bərpa və yenidənqurma prosesi artıq geniş vüsət alıb. Bu ərazilərdə minalardan təmizləmə, təhlükəsizlik infrastrukturunun qurulması, polis və fövqəladə xidmətlərin formalaşdırılması davam edir. Hər bir qayıdan vətəndaşın təhlükəsizliyi dövlətin bir nömrəli vəzifəsidir. Bu isə yalnız kifayət qədər maliyyə dəstəyi ilə mümkün ola bilər.

Digər tərəfdən, dünya miqyasında müşahidə olunan geosiyasi gərginliklər, regionda baş verən hərbi-siyasi proseslər, Ermənistanın bəzi dairələrinin hələ də revanşist meyilləri təhlükəsizlik məsələlərinə daha çevik və çevrəvi yanaşma tələb edir. 2026-cı ildə təhlükəsizlik büdcəsinin artırılması həm də kibertəhlükəsizlik, sərhəd mühafizəsi, xüsusi xidmət orqanlarının texniki təchizatının yenilənməsi, daxili təhlükəsizlik və fövqəladə hallar sistemlərinin gücləndirilməsi istiqamətlərində atılacaq real addımlar üçün hüquqi və maliyyə bazası yaradacaq. Eyni zamanda, bu artım müdafiə sənayesinin inkişafına, yerli istehsalın genişlənməsinə və milli texnoloji potensialın yüksəlməsinə xidmət edəcək. Biz artıq silah və sursat idxal edən yox, müəyyən sahələrdə ixrac potensialı yaradan bir dövlətə çevrilirik. Unutmamalıyıq ki, təhlükəsizlik - iqtisadi inkişafın, sosial rifahın, vətəndaş məmnunluğunun və dövlətin sabitliyinin əsas təminatıdır. Təhlükəsizliyin zəiflədiyi yerdə nə iqtisadi tərəqqi, nə də sabitlik mümkündür. Təhlükəsizlik büdcəsinə əlavə vəsait ayrılması dövlətin maliyyə yükünün artırılması deyil, əksinə - millətin təhlükəsiz gələcəyinə qoyulan sərmayədir".

***Anar Kəlbiyev***